Şahid ASTARALI

Vətən həsrəti

Bakı - Ecoprint - 2022

Redaktor və
ön sözün müəllifi: Əfqan Nəsirli

Şahid Astaralı, “Vətən həsrəti”
Bakı, “Ecoprint”, 2022, 196 s.

Kitabda müəllifin ayrı-ayrı vaxtlarda yazdığı şeirlər cəmlənib. Oxucularla ilk görüşü olan müəllif Şahid Astaralının bu kitabı geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

ISBN: 978-9952-29-097-6

© Şahid ASTARALI

Cövziyev Şahid Mahmud oğlu (Şahid Astaralı) 1969-cu ildə Astara rayonunda anadan olub. 1986-cı ildə Astara şəhər 3 saylı orta məktəbi bitirib. 1987-1990-cı ildə ordu sıralarında xidmət edib. Ordudan tərxis olunduqdan sonra Bakı Plan-İqtisadiyyat texnikumuna qəbul olub. 1992-ci ildə texnikumu bitirib müxtəlif tikinti idarələrində mühasib vəzifəsində çalışıb.

2010-cu ildən ədəbi yaradıcılıqla məşğul olmağa başlayıb. Daim dövrü mətbuatda və KİV-də şeirləri ilə çıxış edib.

Ailəlidir, 3 övladı, 2 nəvəsi var.

MÜƏLLİFDƏN

Dəyərli oxucularım, sizinlə ürəyimin dərinliklərində yığılmış qalaq-qalaq hisslərimi bölüşmək niyyətindəyəm. Şeirə həvəsim hələ uşaq yaşlarından başlayıb və şeirin, poeziyanın vurğunu olmuşam. Korifey şairlərimizin şeirlərini çox həvəslə oxuyub zövq almışam hər zaman. Saatlarla şeir dinləməkdən doymamışam.

Hələ orta məktəb illərində şeir dərnəklərinin ən fəal üzvü olmuşam. İllər keçdi, bu həvəs içimdə bir tələtüm yaratdı. Qələmi əlimə alıb nəsə yazmaq istədim. Alındı deyəsən. İlk şeirimi məhəbbət mövzusu ilə başladım.

Gedək qəlbimizdə xoş arzu, dilək,
Bir yerdə sevinək, bir yerdə gülək.
Özünü dünyanın xoşbəxti bilək,
Dönək bir cüt quşa, gedək bu ömrü,
Tut əlimdən qoşa gedək bu ömrü.

Çox sevindim. Əlbəttə ki, səhvlərim oldu. Şeir yazmağın sirrini mən bizim dəyərli şairimiz, elimizin sevimlisi (bibim oğlu) Nəriman Azəridən öyrəndim. Qaydaları mənə başa saldı. Ən önəmlisi, danışıq dili ilə şeir dilinin fərqini izah etdi.

Beləcə, yazmağa başladım. Əvvəl dost-tanış arasında, el şənliklərində, sosial şəbəkələrdə şeirlərim bəyənildi. Bu sənətdə az-çox tanınmağımda sosial şəbəkələrlə yanaşı, bizim dəyərli ziyalımız, Fəxri Mədəniyyət İşçisi Sürəddin müəllimin rolu danılmazdır. “Astara şairləri” layihəsində ilk qonağı mən

olmuşam. Bu layihə ümumiyyətlə, rayonda böyük əks-səda doğurdu. Bu da mənim uğrumun başlanğıcı oldu. Və rayonun bütün tədbirlərində iştirak etdim. Çıxışlarım alqışlarla qarşılandı. Bu məni daha da ruhlandırdı.

Daha sonra Buryatiya Respublikasının Selenqa şəhərində fəaliyyət göstərən Azərbaycan Diasporları ilə İş Komitəsinin sədri, çox dəyərli vətənpərvər eloğlumuz Cəmil müəllim tərəfindən "Qızıl Qələm" fəxri diplomuna layiq görüldüm. Bu mənə yeni stimul verdi.

Allaha çox şükürlər olsun ki, ilk sənət yolumda belə gözəl insanlarla qarşılaşdım.

Bu kitab yaradıcılığımın toplanıldığı ilk nəşrdir. İlklər hər zaman əziz olur, deyirlər. Sevincimin həddi-hüdudu yoxdur. Bu sevinci mənə yaşatdığına görə, layihələr rəhbəri, ideya müəllifi, çox dəyərli Sürəddin müəllimə, göstərdikləri maddi və mənəvi dəstəyə görə hörmətli Cəmil müəllimə və elimizin xeyirxah oğulları Asif və Salman bəyə, kitabın redaktoru Əfqan Nəsirliyə öz dərin təşəkkürlərimi, sonsuz minnətdarlığımı bildirirəm. Var olsun dostlar!

Əziz oxucum! Ön söz də sənindir, son söz də sənindir.

Şair ömrünün əbədiyyətə uzanan yoluna qızılı, əlvan bir zolaq düşür... Bu əlvan işıq zolağı, bu qızılı şüa şairin böyük cahana verdiyi, dünyaya nəsil-nəsil gəlib gedən insanlara bəxş etdiyi işıq payıdır. O işıq payının zərrəsi olmağı ümidi ilə...

Arzu edirəm ki, bu kitab şeirsevərlərin stolüstü kitabına çevrilsin.

Hörmətlə, kitabın müəllifi, Şahid

ÖN SÖZ

Bu gün ölkəmizin bütün sahələrində olduğu kimi, ədəbiyyat sahəsində də böyük dəyişikliklər gedir. Bu inkişaf fonunda ədəbi mühitə yeni-yeni imzalar, simalar gəlir və hər biri zaman axınında öz yaradıcılığına uyğun yer tutur.

Son zamanlar isə poeziya sahəsində öz qələmini sınayanlar daha da çoxalıb. Lakin yazdıqları fikirlər və poeziya nümunələri ilə ədəbi cameədə imzasını tanıtdırmaq hər kəsə mənsub olmur.

Öz imzası ilə ədəbi mühitdə tanınmağa başlayan şairlərimizdən biri də Şahid Astaralıdır. Yazdığı şeirlərdən məlum olur ki, şair ağır həyat yaşamış, böyük çətinliklərlə qarşılaşmışdır. Xüsusilə də, vətən həsrətli şeirləri onun nə qədər vətənpərvər, torpağa bağlı olduğunu göstərir.

Əgər qərib köçsəm günün birində,
Gedin doğma yurdda haylayın məni.
Bölün misra-misra, ya sətir-sətir,
Vətən torpağına paylayın məni.

deyən şair, Vətənin hər qarışını, hər daşını hər şeydən üstün tutduğunu, vaxtı ilə işğal olunmuş torpaqlarımıza qayıtmaq istədyini açıq-aşkar biruzə verir. Eyni zamanda digər şeirlərində qələbəyə inamını tərənnüm edir:

Neçə kərə yasaqlandın, vuruldun,
Hey bərkidin, haqsızlıqdan duruldun.
Şəhidlərin qanlarıyla yuyuldun,
Qeyrət adlı səltənətim, növrağım,
Zirvələrdə dalğalanan bayrağım.

Şairin şeirlərindən məlim olur ki, əksər aşıqlər kimi, onun da ilk sevgisi daşa dəyib, lakin Şahid ilk məhəbbətini unutmayıb, eyni zamanda ürək dağlayan misralara həkk edib.

Sevgilər tükənib, yox ürəklərdə,
Gur yanan ocaqlar indi qalanmır.
Leylilər dəfn olub xatirələrdə,
Daha yar başına heç kəs dolanmır.

Şair Şahid Astaralının yaradıcılığını yaxından izlədikdə, onun necə iti, kəsərli qələminin olduğunun şahidi olursan. O, hadisələrə həqiqətin tərəfindən yaxınlaşır, haqqı çəkinmədən dilə gətirir.

"Vətən həsrəti" adlı bu kitab onun ilki olmağına baxmayaraq, inanıram ki, həm ədəbi mühitdə, həm də geniş oxucu kütləsi arasında böyük marağa səbəb olacaq. Şair isə yaradıcılığını daha da zənginləşdirəcək. Bu sahədə Şahid Astaralıya daha böyük uğurlar və yeni yaradıcılıq yenilikləri arzulayıram.

Əfqan NƏSİRLİ,
AYB və AJB-nin üzvü,

ŞEİRLƏR

VƏTƏN HƏSRƏTLİ ŞEİRLƏR

VƏTƏN HƏSRƏTİ

Əgər qərib köçsəm günün birində,
Gedin doğma yurdda haylayın məni.
Bölün misra-misra, ya sətir-sətir,
Vətən torpağına paylayın məni.

Külünglə torpağı qazıb yormayın,
Bəlkə köçəsiyəm, dərin yarmayın.
Qiblə tərəfimi heç axtarmayın,
Düz üzü vətənə siz qoyun məni.

Qalmadı xatirəm, qalmadı izim,
Bitdi cığırlarda, yollarda gözüm.
Sizə yalvarıram mən dizin-dizin,
Barı, Vətən deyib, ağlayın məni.

Hicrandan od tutar üstümdə daşlar,
Söndürməz nə çovğun, nə də yağışlar.
Siz, ey Vətənimə köçəri quşlar,
Bir dimdik su alıb çiləyin məni.

ZİRVƏLƏRDƏ DALĞALANAN BAYRAĞIM

Hürr, azadlıq mələyisən enməyən,
Səmalarda ay ulduzlu çırağım.
Əbədiyyət məşəlisən sönməyən,
Zirvələrdə dalğalanan bayrağım.

Neçə kərə yasaqlandın, vuruldun,
Hey bərkidin, haqsızlıqdan duruldun.
Şəhidlərin qanlarıyla yuyuldun,
Qeyrət adlı səltənətim, növrağım,
Zirvələrdə dalğalanan bayrağım.

Sənsiz keçən illərimi qopart at,
Biz kimik ki, sənsən bizə zəmanət.
Məmməd Əmin dühasından əmanət,
Qürur ilə söykəndiyim dayağım,
Zirvələrdə dalğalanan bayrağım.

Əzəmətin daha parlaq, gur olsun,
Dost kəsilən baxışlara nur olsun.
Dalğalan ki, yağı düşmən kor olsun,
Sərkərdələr baş əydirən ocağım,
Zirvələrdə dalğalanan bayrağım.

Kim deyir ki, beş arşınlıq parçasan,
Kim deyir ki, yaranmısan sən asan?
Əlli milyon ürəklərdən parçasan,
Qəlbimiz tək yuxu bilməz, oyağım,
Zirvələrdə dalğalanan bayrağım.

Dalğalan ki, çiçəklənsin çöllərim,
O taylı, bu taylı nakam tellərim.
Göyçə, Dərbənd, o Zəngəzur ellərim,
Dalğalan ki, canlansın Qarabağım,
Zirvələrdə dalğalanan bayrağım.

VƏTƏNDİR

Heç nə asanlıqla olmur, eloğlu,
Gül də naz görməsə bir gün itəndir.
Axtarma dünyanı sən qarış-qarış,
Harda şəhid varsa ora vətəndir.

Düşmən tapdağına bulanan torpaq,
Şəhid qanlarıyla sulanan torpaq.
Od tutub qeyrətdən qalanan torpaq,
Bölübdür qəlbimi parə, vətəndir.

Ormanına dizin-dizin sürünnəm,
Çamuruna yorğan kimi bürünnəm.
Telini yandırsan həmən görünnəm,
Çəksələr də məni darə, vətəndir.

Payızda üşüyən yarpağın ollam,
Qoparam qap-qara torpağın ollam.
Gecəli-gündüzlü hər çağın ollam,
Etsə də üzümü qarə, vətəndir.

Qürbət ellərindən şux nəğməm gələ,
Ən yaxın dostlarım, lap doğmam gələ.
Yüz təbib yığışa, yüz loğman gələ,
Sağalmaz dərdimə çarə vətəndir.

Sevirəm düzlüyü, haqq-ədaləti,
Hər zaman fikrimdə olmuşam qəti.
Şahidin ilk eşqi, ilk məhəbbəti,
Deyin, gözləməsin yarə, vətəndir.

CƏNNƏT ZİRVƏSİYLƏ QOŞA ŞƏHİDLƏR

Gur yanan ocaqlar sönməsin deyə,
Vermədiz fürsəti boşa, şəhidlər.
Yağı tapdağına çönməsin deyə,
Döndünüz torpağa, daşa, şəhidlər.

Namərd hiyləsinə bələd oldunuz,
Mübariz oldunuz, Polad oldunuz.
Amansız düşmənə cəllad oldunuz,
Bənzədiz qartal tək quşa, şəhidlər.

Siz rahatlığımız, siz dincliyimiz,
Dünənim, bu günüm, gələcəyimiz.
Sizdən ilham alan tər gəncliyimiz,
Qeyrətdən gəlirlər cuşa, şəhidlər.

Məkanınız behişt, cənnət bağıdır,
Ruha sığal çəkən dərd ortağıdır.
Hər obam vətənin Qarabağıdır,
Az qala gələnlər çaşa, şəhidlər.

Bu qədər çiçəklər kim boyun olub?
Bəlkəmi cənnətdə bəy toyun olub?
O al qərənfillə qol-boyun olub,
Vermisiniz hey baş-başa, şəhidlər.

Şahidəm, şerimlə düşsəm dillərə,
Ömrüm qul olsa da, bu kor illərə
Əllərim yetmədi o zirvələrə..
Cənnət zirvəsiylə qoşa şəhidlər.

BİZ SİZƏ BORCLUYUQ, QALİB ƏSGƏRİM

Zəfər tablosunu yaratdı onlar,
Düşmən qamətini əydi oğullar.
Daha lazım deyil bizə nağıllar,
Dəyişdi ruzigar, haqqım, dəyərim,
Biz sizə borcluyuq, qalib əsgərim.

Zamanın təkəri dönməz geriyə,
Yalan ayaq tutar, sanma yeriyə.
Aldandıq illərdir, ya rəbbim niyə?
Yetər bu zülümlər, bitdi dərd-sərim,
Biz sizə borcluyuq, qalib əsgərim.

Ayrılıq var, baxışlarda sualdır,
Ayrılıq var, qovuşmağı xəyaldır,
Ayrılıq var, sonu şirin vüsaldır.
İndi Şuşayadır mənim səfərim,
Biz sizə borcluyuq, qalib əsgərim.

Unutmaz bu vətən fədakarları,
Mübariz, Polad tək mərd oğulları.
Hələ neçə-neçə qəhrəmanları,
Bir can dəyərimsən, lələm, gövhərim,
Biz sizə borcluyuq, qalib əsgərim.

Gəlin təbrik edək baş komandanı,
Atdığı “tvit”lər coşdurdu qanı.
Çökdürdü önündə o Paşınyanı,
Açılan sabahsan, aydın səhərim,
Biz sizə borcluyuq, qalib əsgərim.

Qürurum sığmayır nə yer, nə göyə,
Məğrur duruşum var, bilmirəm niyə?
Şəhid ruhlarımı verdi hədiyyə?
Bir gözüm sevincdir, bir göz kədərim,
Biz sizə borcluyuq, qalib əsgərim.

VƏTƏNİMDİR, VƏTƏNİMDİR, VƏTƏNİM

Zaman-zaman yaralandın, iz-izsən,
Ərit dolsun o izlərə bədənim.
Kimsən axı, belə doğma, əzizsən?
Vətənimdir, vətənimdir, vətənim.

Dağım Talış, dənizim var, Xəzərim,
Həm yaqutum, həm mirvarim, həm zərim.
Yum gözünü dəyməsin qoy nəzərin,
Nə onundur, nə sənindir, nə mənim,
Vətənimdir, vətənimdir, vətənim.

Maskalanmış libaslarda, nə üzdə,
Nə məkirli baxışlarda, nə gözdə.
Nə əllidə, nə yetmişdə, nə yüzdə,
Həsrət çəkən ürəklərdə bitənim,
Vətənimdir, vətənimdir, vətənim.

Hər qəlblərdə eşqə tonqal qalanmaz,
Nanəcibdən ömrə vəfa qılınmaz.
Yüz təbiblər əlac edə, alınmaz,
Sağalmayan dərdə çarə yetənim,
Vətənimdir, vətənimdir, vətənim

Göylər qədər füsunkarsan, dərinsən,
Sən bir ana laylasından şirinsən.
Ocağımsan, səcdəgahım, pirimsən,
Nə tayın var, nə bənzərin, nə tənin,
Vətənimdir, vətənimdir, vətənim.

QƏLƏBƏN MÜBARƏK, AZƏRBAYCANIM

Yolumuz haqq yolu uzun yol idi,
Dilimi kəsdilər, dilim lal idi.
Arzum ürəyimdə qara xal idi,
Adın çəkiləndə məğrur dayanım,
Qələbən mübarək, Azərbaycanım!

Qədim tarixim var, ulu millətim,
Heydər öndərimdir, İlham qeyrətim.
İmzalar içində imzam, hörmətim,
Odlar diyarıdır adım, ünvanım,
Qələbən mübarək, Azərbaycanım!

Əzdin başlarını sən bədxahların,
Şanlı tarix yazdı mərd oğulların.
Zəfər yürüşüdür hər addımların,
Sinəmdə qəlb coşur, damarda qanım,
Qələbən mübarək, Azərbaycanım!

Cəsarətin yardı aranı, dağı,
Qovdun üstümüzdən boran-sazağı.
Qaytardın cənnəti, o Qarabağı,
Sən mənim qürurum, şöhrətim, şanım,
Qələbən mübarək, Azərbaycanım!

Qaliblər önündə gəlsin sorağım,
Ucalsın üç rəngli zəfər bayrağım.
Sən and yerimizsən, sən qibləgahım,
Odlu həsrətinə qul olsun canım,
Qələbən mübarək, Azərbaycanım!

Arzular bir, məslək, amal bir indi,
Hamı bir yumruq tək birləşir indi.
Şəhidlərin ruhu sevinir indi,
Qalmadı sabaha qisas, amanım,
Qələbən mübarək, Azərbaycanım!

DÜŞMƏNİN BAĞRINI YARAN OĞULLAR

Atıldız döyüşə cəngavər kimi,
Düşmənin bağrını yaran oğullar.
Vətən keşiyində dəmir yumruqla,
Canın sipər edib duran oğullar,
Düşmənin bağrını yaran oğullar.

Sizi hicran yeli qocaltdı yaman,
Nə bəmə kökləndi, nə zilə kaman.
Qisas həsrətiylə, qəlbi hər zaman,
Çırpınan oğullar, vuran oğullar,
Düşmənin bağrını yaran oğullar.

Şığıyıb qartal tək aman verməyən,
Şübhələr verməyən, guman verməyən.
Nəfəsin dərməyə zaman verməyən,
Fırtına, qasırğa, boran oğullar,
Düşmənin bağrını yaran oğullar.

Azğınlar aşmasın deyə həddini,
Çökdüz sinəsinə, bükdüz qəddini.
Etdiniz "OHANYAN" məşhur səddini
Bir göz qırpımında viran oğullar,
Düşmənin bağrını yaran oğullar.

Vəhşilikdən doğan ac baxışları,
Məkirli, hiyləgər, bic baxışları.
Yurduma göz dikən kəc baxışları,
Oyub giləsindən qıran oğullar,
Düşmənin bağrını yaran oğullar.

Qarabağ deyildi tək dilimizdə,
Polad, Mübarizlər, Naillər bizdə.
Koroğlu gücü var Pəncəlimizdə,
Yumruq tək birləşən Turan oğullar,
Düşmənin bağrını yaran oğullar.

Siz örnək oldunuz hünər mətində,
Dünyanı mat qoyduz öz vətənində.
Haqqın əbədiyyət səltənətində,
Cənnət bağçasını quran oğullar,
Düşmənin bağrını yaran oğullar.

ŞƏHİDLƏR

Bu uzun illərin əsarətindən,
Qisas həsrətiylə yanan şəhidlər.
Haqqın, ədalətin səltənətindən,
Bir xilaskar kimi enən şəhidlər.

Nişangaha dönsəz arxadan, öndən,
Ölüm də ayırmaz sizi vətəndən.
Kasıb bir daxmanın xəcalətindən
Milyon ürəklərə qonan şəhidlər.

Hərəniz Koroğlu bir dəli kimi,
Hüseyni, Həsəni, şir Əli kimi.
Əbədi dünyanın məşəli kimi,
Sönməz çıraqlara dönən şəhidlər.

Təbiət amansız çalarlarında,
Tabut anaların öz qollarında.
Məsum körpələrin xəyallarında,
Şirin nağıllara çönən şəhidlər.

Çin oldu gördüyün o röyaların,
Vətən, gözün aydın, əridi qarın.
Murov, Şuşa kimi sərt qayaların,
Keçilməz səddini yenən şəhidlər.

Nələr etmədiniz, de, nələri siz!?
Cənnət diyarının gövhər ləlisiz.
Əbədi dünyanın sakinlərisiz,
Bu qara daşlarda donan şəhidlər.

ÜRƏKLƏRDƏ ŞƏHİDLƏR

Hər sətirdə, hər kəlmədə, hər sözdə,
Arzularda, diləklərdə şəhidlər.
Nə dərədə, nə təpədə, nə düzdə,
Milyon-milyon ürəklərdə şəhidlər.

Sonu bitməz əbədilik bir yazla,
Uyudunuz yanıqlı bir avazla.
Həm ədəblə, həm hörmətlə, həm nazla,
Qucaq-qucaq çiçəklərdə şəhidlər.

Təkcə vətən, tək qeyrətdir azarı,
Budur dərdi, budur giley-güzarı.
Torpaq ana, beşik olub məzarı,
Yırğalanır bələklərdə şəhidlər.

Bir amalda, bir məsləkdə, bir donda,
Aslanların gücləri var qolunda.
Günəş olub zəfərimin yolunda,
Dəmir yumruq biləklərdə şəhidlər.

Nə yayında, nə şaxtalı qışında,
Nə qocalır, nə də artır yaşında.
Nə ətəkdə, nə dağların başında,
Göy üzündə mələklərdə şəhidlər.
Milyon-milyon ürəklərdə şəhidlər.

GƏL DÖNDƏR MƏNİ DƏ DAŞINA, VƏTƏN

Elə əzizdir ki, torpağın, daşın,
Oğullar dolandı başına, vətən.
Axı mən də sənin dostun, sirdaşın,
Gəl döndər məni də daşına, vətən.

Nə Məcnunam, nə də bir Yanıq Kərəm,
Sənin eşqində mən qulam, nökərəm.
Son damla qanımı qurban edərəm,
Bir damcı gözünün yaşına, vətən.
Gəl döndər məni də daşına, vətən.

Mənə aydınlıqdır dumanın, sisin,
Geniş bir ümmandır, ən dar qəfəsin.
Vulkan tək püskürər qaynar nəfəsim,
Hərarət gətirər qışına, vətən.
Gəl döndər məni də daşına, vətən.

Dost, düşmən demədin, üzünə güldün,
Dərd əlindən zaman-zaman büküldün.
Qopartdılar, ilmə-ilmə söküldün,
Mat qaldın dünyanın işinə, vətən.
Gəl döndər məni də daşına, vətən.

Nə ümid qalandı, nə güman verdi,
Nə imkan yol açdı, nə zaman verdi.
Qəhrəman şəhidlər sənə can verdi,
İndi qürurla vur döşünə, vətən.
Gəl döndər məni də daşına, vətən.

İLAHİ EŞQ İLƏ VİRĞUNAM SƏNƏ

Vətən, sənsən mənim hər məsləkdaşım,
Səndən ayrı düşmək ölümdür mənə.
Qara daşlarındır ən əziz daşım,
İlahi eşq ilə vurğunam sənə.

Nə varım, nə qalaq-qalaq sərvətim,
Ovuc içi qədər yox səltənətim.
Polad qürurum var, saf ləyaqətim,
Ən uçuq daxman da saraydır mənə,
İlahi eşq ilə vurğunam sənə.

Şəhidlərin ruhu gəzir daşında,
Kasıb daxmaların ocaq başında.
Qocaltdılar səni bu gənc yaşında,
Düşsən də borana, düşsən də çənə,
İlahi eşq ilə vurğunam sənə.

Bu ağrını çəkə bilməz hər yetən,
Anlamaz dərdini hər yoldan ötən.
Od tutsun illər ki, bölündün, vətən,
Dörd yandan yasaqsan özün özünə,
İlahi eşq ilə vurğunam sənə.

Axıb sel tək bu son damla qanımla,
Söndürrəm atəşin şövqlə, inamla.
Əgər cismim ölsə uçub ruhumla,
Dolannam başına mən dönə-dönə,
İlahi eşq ilə vurğunam sənə.

Sənsiz mən kiməm ki, bir quru cəsəd,
Sənədir məhəbbət, sənədir həsəd,
Yoluma çəksələr qayalardan sədd,
Dişim, dırnağımla keçərəm yenə,
İlahi eşq ilə vurğunam sənə.

MƏN QALİB ÖLKƏNİN VƏTƏNDAŞIYAM

Bu nəhəng dünyanın xəritəsində,
Sanmayın kiçiyəm, bir qarışıyam.
Ulu öndərim var, söz çəkisində,
Mən qalib ölkənin vətəndaşıyam.

Bu çətin yollarda yerişim təzə,
Ayağım büdrəyir hey gəzə-gəzə.
Bir az qürurluyam, bir az bamәzə,
Deməyin körpəyəm, hələ naşıyam,
Mən qalib ölkənin vətəndaşıyam.

Qalxdım zirvəsinə doğma Şuşanın,
Mələklər bir yanım, quşlar bir yanım.
Adını çəkməyin Ermənistanın,
Bir dəmir yumruğam, haqq savaşıyam,
Mən qalib ölkənin vətəndaşıyam.

Torpaq qibləgahı hər oğulların,
Kürəyində gəzir nər oğulların.
Qanıyla sulandı ər oğulların,
Udini, ləzgisi, ya talışıyam,
Mən qalib ölkənin vətəndaşıyam.

Yeriyən, yürüyən, qaçanım azad,
Şuşam, Kəlbəcərim, Laçınım azad.
Göyçə göldən su da içənim azad,
Dilbər Qarabağın üzük qaşıyam,
Mən qalib ölkənin vətəndaşıyam.

Sil o göz yaşını, anam, ağlama,
Aç qara ləçəyin, qara bağlama.
Qurbanam, gülümsə, sən yas saxlama,
Sonsuz səmaların cənnət quşuyam,
Mən qalib ölkənin vətəndaşıyam.

Məzarlar ömrümün sükut anıdır,
Hərə bir qəhrəman, hərb dastanıdır.
Vətənim şəhidlər xiyabanıdır,
Şahidəm, tarixin qan yaddaşıyam,
Mən qalib ölkənin vətəndaşıyam.

ŞƏHİDİMƏ HÖNKÜR-HÖNKÜR AĞLAYIN

Ellər, ay ulduzlu tabutum gəlir,
Haray çəkin, fəryad edin, çağlayın.
Aşiqim, fədaim, sübutum gəlir,
Şəhidimə hönkür-hönkür ağlayın.

Bu vətənin tale yükü kədərmiş,
Kür nədir ki, Araz nədir, Xəzərmiş.
Demə, torpağı da dərd böyüdərmiş,
Bu torpağı məzar edin, dağlayın!
Şəhidimə hönkür-hönkür ağlayın.

Yenə də qaysağı qopdu yaramın,
Çərdəyi qurudu min arzu-kamın.
Qaraldı günəşi bəxtsiz anamın,
Diz çökün, bel bükün, sinə dağlayın,
Şəhidimə hönkür-hönkür ağlayın.

Aramızdan zirvə gedir, dağ gedir,
Çəkir sinəmizə çarpaz dağ, - gedir.
Yüz eli isidən bir ocaq gedir,
Nuru gedir bu gün günəşin, ayın,
Şəhidimə hönkür-hönkür ağlayın.

Amansızdır, dünya zalım, ay ana,
Necə sorum indi halın, ay ana?
Gəl, sənə mən lay-lay çalım, ay ana,
Quşlar, yalvarıram qanad saxlayın,
Şəhidimə hönkür-hönkür ağlayın.

Babalar döşünə şəstlə döyərdi,
Qara daş göyərməz əsla, - deyərdi.
Şahidəm mən, qara daşlar göyərdi,
Beşdimi, ondumu, yüzdümü sayın?
Şəhidimə hönkür-hönkür ağlayın.

İKİ OĞLU ŞƏHİD ANA

Ayaq saxla, zalım fələk,
Necə qıydın qoşa cana?
Sən çəkdiyin el çəkməsin,
İki oğlu şəhid ana.

Bir sükutam, qəlbi qanam,
Bağrı çat-çat bir ümmanam.
Dözümünə mən heyranam,
İki oğlu şəhid ana.

Kor fələyin üzü tərsdi,
Qara yellər hardan əsdi?
Sənə dünya dar qəfəsdi,
İki oğlu şəhid ana.

Bu dərd vallah, qəddin əyər,
Dağ olsa da, dağ əriyər.
Ellər sənə lay-lay deyər,
İki oğlu şəhid ana.

Yarsan da sərt dumanı sən,
Bilirik ki, deyil asan.
Qəhrəmanlar anasısan,
İki oğlu şəhid ana.

Bu şəhidlər elin, köyün,
Zirvəsidir yerin göyün.
Sən başını dik tut, öyün,
İki oğlu şəhid ana.

Dünya zalım, üzü bəlli,
Əyrisi düz, düzü bəlli.
Bacarırsan ver təsəlli,
İki oğlu şəhid ana.

ELİMİN QƏHRƏMAN OĞLU PƏNCƏLİ

Əfsanəvi qəhrəmanımız Pəncəli Teymurovun əziz xstirəsinə

Düşdün dildən dilə, döndün dastana,
Ey talış xalqımın gövhəri, ləli.
Fəxarət gətirdin Azərbaycana,
Elimin qəhrəman oğlu Pəncəli.

Qədəmləri basan yerdə ayağı,
Məhv oldu düşmənin ümid çırağı.
Basdı sinəsinə o al bayrağı,
Qartal tək şığıdı, cumdu irəli,
Elimin qəhrəman oğlu Pəncəli.

Kabusu yaşatdın cəsarətindən,
Bir ordu yetmədi, qorxdu təkindən.
Kəsdin biləyindən, kəsdin kökündən,
Xalqıma uzanan o mənfur əli,
Elimin qəhrəman oğlu Pəncəli.

Şikar göründüsə, demək sonudur,
Cəngavər də odur, igid də odur.
"Pəncəli ordunun bel sütunudur",
"Qoca qurd" ləqəbli, tunc iradəli,
Elimin qəhrəman oğlu Pəncəli.

Arzular var sabahı nurlandıran,
Arzular var daim xəyallar quran,
Arzular da varmış qanı donduran.
“Bükülüb bayrağa tabutda gəlim”!
Elimin qəhrəman oğlu Pəncəli.

Bu talış xalqının mərd qəhrəmanı,
Yardı şübhələri, qorxu, gümanı,
Yaman çalxaladı Ermənistanı.
Milyon ürəklərə yetdı əməli,
Elimin qəhrəman oğlu Pəncəli.

Ölüm sinəsinə döyməsin gərək,
Ona qalib gələn cəsur bir ürək,
Ölməz Mübarizlər, Pəncəlilər tək.
Ölümün özünün qorxunc əcəli,
Elimin qəhrəman oğlu Pəncəli.

Əzərud torpağın yaqutu zəri,
İndi Türk elinin doğan səhəri.
Sənə xalqım verdi adı, dəyəri,
Sən, ey azadlığın ilki, əzəli,
Elimin qəhrəman oğlu Pəncəli.

ANALARIN GÖZ YAŞLARI QURUMUR

Bu iztirab nə vaxt bitər görəsən?
Haqlı olan haqsızlardan haqq umur.
Bu dünya bir cəhənnəmdir deyəsən,
Anaların göz yaşları qurumur.

Üstümüzdən əskilməyir ləkə, kir,
Bu nə tale, bu nə qismət, bu nə sirr?
Ya var olaq, ya yox olaq, ya əsir,
Çox başları ağrıdacaq bu çamur,
Anaların göz yaşları qurumur.

Əs, ey külək, yağ, ey yağış, üstümə
Sularında boğulmasam bəs demə.
Bütün dünya dayansın qoy qəsdimə,
Acıları yuya bilməz bu yağmur,
Anaların göz yaşları qurumur.

Kim ovutsun, bu naləni, fəryadı?
Zənn etmə ki, ana qəlbi qayadı.
Bağrı çat-çat qurumuş bir dəryadı,
Ər oğullar hər ötən gün göz yumur,
Anaların göz yaşları qurumur.

Üzür məni baxışların gileyi,
Nakam qalmış min arzu, min diləyi.
Bu şəhidlər vətənimin taleyi,
Quşlar belə bu hicrana uyumur,
Anaların göz yaşları qurumur.

Bir arzum var, qara baxtın oyana,
Qan ağlayan göz yaşların dayana.
Dönə sevinc yaşlarına, ay ana,
Bu arzular çərdəyində quruyur,
Anaların göz yaşları qurumur.

VƏTƏNSİZ ÖLÜMDƏN QORUYUN MƏNİ

Dağlar, yalvarıram şeir dilimdən,
Düşən hər kəlmədən siz duyun məni.
İllər ayrı saldı doğma elimdən,
Vətənsiz ölümdən qoruyun məni.

Demirəm, şaxtalı, şehli ayazda,
Demirəm, laləli, çiçəkli yazda,
Demirəm, köklənmiş o telli sazda,
Qırıq bir kamanda arıyın məni,
Vətənsiz ölümdən qoruyun məni.

Nə Məcnun, nə Kərəm, nə də Əsliyəm,
Kimsəsiz yollar tək daş kəsəkliyəm.
Vətən xəstəsiyəm, yurd xəstəsiyəm,
Didin, pilə-pilə darıyın məni,
Vətənsiz ölümdən qoruyun məni.

Ömrü qul eylədim pul, vara, - getdi,
Xərclədim dükana, bazara, - getdi.
Anam şəklim ilə məzara getdi,
Alın, o torpağa bürüyün məni,
Vətənsiz ölümdən qoruyun məni.

ALLAH SƏNİ QORUSUN, GET, ALLAHA ƏMANƏT

Heç kim qoy öyünməsin, heç kim lovğalanmasın,
Vətən deyib yalandan alışmasın, yanmasın.
Sən vətənin oğlusan, vətən sənin çiynində,
Bu xalq sənə borcludur, bu xalq sənə zəmanət.
Rəşadətli ordumun, ey qəhrəman əsgəri.
Allah səni qorusun, get, allaha ənanət.

Vətən, ana kəlməsi, dilindən düşmür bir an,
Öz qanıyla şərəfli tarix yazan qəhrəman.
Bu Vətən savaşında igid, cəsur yenilməz,
Qalibiyyət yolunda qələbəmsən hər zaman.
Yetər artıq bu qədər dözüm, səbir, dəyanət,
Allah səni qorusun, get, allaha əmanət.

Bu yol mərd oğulların, dözməz sıradan biri,
Bu yol zəfər yoludur, bu yol elə bir yol ki,
Yorğanı ana torpaq, daxması da səngəri,
Sənə zirvə yaraşır, Azərbaycan əsgəri,
Qarşında qoy baş əysin bu dünya, bu kainat.
Allah səni qorusun, get, allaha əmanət.

Bu torpaq qibləgahın, bu torpaq and yerindir,
Bu torpaq səcdəgahın, haqqa güman yerindir.
Bu torpaq ən müqəddəs, ən son məkan yerindir,
Açdığın hər bir cığır, buraxdığın hər bir iz,
Hər addımda təhlükə, hər addımda xəyanət,
Allah səni qorusun, get, allaha əmanət.

YALVARIRAM, BU DÜNYAYA BİR DƏ GƏL

Polad Həşimovun ölməz xatirəsinə

Anaların göz yaşına məlhəm ol,
Yalvarıram, bu dünyaya bir də gəl.
Qoyma gül üzlü çöhrələr saralsın,
Tufanda gəl, boranda gəl, qarda gəl.
Yalvarıram, bu dünyaya bir də gəl.

Gəlişinlə həyat yenə qaynasın,
Göydə quşlar dövrə vurub oynasın.
Nişanlı qız sevgilisin haylasın,
Sevinc gətir acılara, dərdə, gəl.
Yalvarıram, bu dünyaya bir də gəl.

Şəhadətinlə bu vətən tam oldu,
Yolumuzda məşəl oldu, şam oldu.
Nakam qalmış arzular da kam oldu,
Dön mələyə, quşlarla bir yerdə gəl,
Yalvarıram, bu dünyaya bir də gəl.

Geniş dünya sənsiz olub dar indi,
Kaman inlər, nalə çəkir tar indi.
Hər nisgildə bir sevinc də var indi,
Heç olmasa gəl yuxuma gir də, gəl,
Yalvarıram, bu dünyaya bir də gəl.

Biz nəsliyik Cavanşirlər, Nəbilər,
Hücum çəksək külli düşmən sərilər.
Bir ölərik, yüz minimiz dirilər,
Harda körpə doğulursa, orda gəl,
Yalvarıram, bu dünyaya bir də gəl.

Məqamın ən uca pak yerindəsən,
Bütövləşmiş xalqın ürəyindəsən.
Hər iki dünyanın zirvəsindəsən,
Ocaqda gəl, məbəddə gəl, pirdə gəl,
Yalvarıram, bu dünyaya bir də gəl.

QAYIDIN VƏTƏNƏ, QAYIDIN BARI

Şan-şöhrət dalıyca qaçan oğullar,
Tər çiçəklər kimi açan oğullar,
Ətrini yadlara saçan oğullar,
Qayıtmaz bir daha ömrün baharı,
Qayıdın vətənə, qayıdın barı.

Analar allahın möcüzəsidir,
Bəşəri xilqətə hədiyyəsidir,
Dünyanın ən zəngin xəzinəsidir,
Bir ana qucağı, ata vüqarı,
Qayıdın vətənə, qayıdın barı.

Qıymayın sevdalı baxışlarına,
Səbəbkar olmayın göz yaşlarına,
Dünya təzim edir ağ saçlarına,
Gəlin unutdurun dərdi, qubarı,
Qayıdın vətənə, qayıdın barı.

Kəndin o başında bir qız gözləyir,
Taleyi baxtına kədər çiləyir.
Hələ neçə-neçə qəlblər sızlayır,
Pozdunuz düz əhdi, bu düz ilqarı,
Qayıdın vətənə, qayıdın barı.

Bəhərsiz arıya dönən oğullar,
Saxta gül-çiçəyə qonan oğullar.
Gur yanan ocağı sönən oğullar,
Ot-ələf basıbdır gedən yolları,
Qayıdın vətənə, qayıdın barı.

Şahid, yaddaşında nələr var, nələr?
Xatırlma, qardaş, gözə qan gələr.
Oğul deyə-deyə köçür analar,
Daşımaz məzar da bu intizarı,
Qayıdın vətənə, qayıdın barı.

EY ANA VƏTƏNİM, DOĞMA ASTARAM

Şəhərlər içində bir şəhərim var,
Bəxtinə qar yağmış bəxtəvərim var.
Acı taleyindən bəd xəbərim var,
Odlanıb yanıram, mən aram-aram,
Ey ana vətənim, doğma Astaram.

Könüllər coşduran parlaq gövhərim,
Xəzərin eşqiylə doğan səhərim.
Bir yanım cənnətim, bir yan qəhərim,
Dilindən qəlbinə kök atmış yaram,
Ey ana vətənim, doğma Astaram.

Əlimi uzatdım əlim kəsildi,
Dilimi uzatdım dilim kəsildi,
Torpağım kəsildi, elim kəsildi,
Kəsildim, bölündüm mən param-param,
Ey ana vətənim, doğma Astaram.

Bu hicran ömrünü suladı getdi,
Dərdinə öz dərdin caladı getdi.
Müqəddəs nə varsa taladı getdi,
Mən də sənin kimi bir tarimaram,
Ey ana vətənim, doğma Astaram.

Bölündü birə-bır, bir ürək, bir dil,
Kəsdi lay sinəni tikanlı məftil.
Hər damla qanından bitdi qərənfil,
Vüsalla qovrulan bir intizaram,
Ey ana vətənim, doğma Astaram.

Gəzərəm dünyanı mən qarış-qarış,
Sənə qovuşmaqçün sürünnəm yay, qış.
Car çəkib hayqırram, talışam, talış,
O lal eşqin ilə mən bəxtiyaram,
Ey ana vətənim, doğma Astaram.

Sənsiz bir sahilsiz dəniz kimiyəm,
Köpüklər üstündə bir iz kimiyəm.
Sənsiz ocağımda kəniz kimiyəm,
Şahidəm, yurdumda qərib məzaram,
Ey ana vətənim, doğma Astaram.

ELƏ VÜQARLISAN, EY Bİ YAYLAĞIM

Dondum qarşısında şux gözəlliyin,
Təəccübüm, heyrətim, hissim, marağım.
Tayı, bərabəri yox gözəlliyin,
Elə vüqarlısan, ey Bi* yaylağım.

Hər daşın altında bir qan yaddaşın,
Neçə min illərə söykənir yaşın.
Qeyrət qalasıdlr qarış-qarışın,
Zirvələr zirvəsi, qartal oylağım,
Elə vüqarlısan, ey Bi yaylağım.

Haft çəşmə bulağın dərdə məlhəmi,
Padişah gölün var, ovudur qəmi.
Rəssamlar mat qalır, çəkmir qələmi,
Qibləm, səcdəgahım, pirim, ocağım,
Elə vüqarlısan, ey Bi yaylağım.

Bu yer ərənlərin, gəlməsin asan,
Tək Mirzənlə** sən ən böyük ordusan.
Qəhrəmanlar yurdu, mərdlik yurdusan,
Kafu qalan*** var ki, basmasın yağı,
Elə vüqarlısan, ey Bi yaylağım.

Cənnət məkanıdı çöllü bağların,
Burda arxalanıb Talış dağların.
Əydilər qəddini padişahların,
Neçə əsrlərdən gəlir sorağın,
Elə vüqarlısan, ey Bi yaylağım.

Sənsiz qıvrılıram kor ilan kimi,
Al məni qoynuna, al balan kimi.
İstəsən lap dondur Savalan kimi,
Hicran atəşindən tutmur calağım,
Elə vüqarlısan, ey Bi yaylağım.

Şahidəm, şeirimlə qonaq gəlmişəm,
Şair kimi üzü dümağ gəlmişəm.
Bilsəydin, Allah, nə sayağ gəlmişəm,
Bu gün xoşbəxt günüm, bəxtəvər çağım,
Elə vüqarlısan, ey Bi yaylağım.

Bi - talış dilində soyuq, bumbuz deməkdir.*
*Mirzə** - Sovet İttifaqı Qəhrəmanı Mirzə Cəbiyev*
"Kafu" qalan – "Baş qala" deməkdir

DÜNYAYA GÖZ AÇAN OCAĞIM MƏNİM

Tanrı gözəlliyin əsirgəməyib,
Qızıldan qiymətli torpağım mənim.
Gəl bağrıma basım, öpüb, oxşayım,
Dünyaya göz açan ocağım mənim,
Anam tək doğmasan, Astaram mənim.

Doymuram baxdıqca hüsnünə, vallah,
Nə gözəl yaradıb yaradan səni.
Önümdə dənizim, arxamda allah,
Əzəmətli Talış dağlarım mənim.

Dörd yanım müqəddəs, pir ocaqlarım,
Paklanır bədən də, ruh da dincəlir.
Haft çəşmə* deyilən buz bulaqların,
Min dərdə şəfalı sularım mənim.

Limon, kinkanımın çoxdu sevəni,
Ətri bihuş edir gəlib, gedəni.
Feyxoa, kivisi, dərdə məlhəmi,
Narıngi, portağal bağlarım mənim.

Tarixlər uyuyur hər bir daşında,
Bilən varmı nələr çəkmiş başın da?
Ağrı var, nisgil var hər qarışında,
İkiyə bölünmüş diyarım mənim.

Qəhrəman Mirzəm var, ölməz Yalçınım,
İgidlər məskəni baxsan hər yanım.
Pəncəli Teymurov hünər dastanım,
Zirvələr fəth edən Çinarım mənim,
Anam tək doğmasan, Astaram mənim.

Haft çəşmə - talış dilində yeddi gözlü bulaq*

ANA VƏTƏNİMDİR DOĞMA HAMUŞAM

Soruşmayın məndən, mən haralıyam?
Avaram, ləzgiyəm, ya da talışam.
Mən yurd xəstəsiyəm, yurda bağlıyam,
Ana vətənimdir doğma Hamuşam.

O, and yerimizdir, o, qibləgahım,
Əlimi açdığım uca dərgahım.
“Rast”ım, muğamatım, “Yetim segahı”m,
Xanım, hökümdarım, soltanım, paşam,
Ana vətənimdir doğma Hamuşam.

Döndü arzularım bir daşa sənsiz,
İndi yaşa görüm, gəl yaşa sənsiz.
Qorxuram vücudum daşlaşa sənsiz,
Qanadı qırılmış yaralı quşam,
Ana vətənimdir doğma Hamuşam.

HƏSRƏTİNDƏYƏM

Ay ellər, obalar, dinləyin bir az,
Bilmirəm sıldırım qayayam, nəyəm?
Həyat sonu bitməz bir imtahandır,
Qayğısız illərin həsrətindəyəm.

Sevinirdim xoş günlərim daldadır,
Nə biləydim tale məni aldadır.
Qulağım səsdədir, gözüm yoldadır,
İşıqlı yolların həsrətindəyəm.

Bir ümid də yoxdur saxlayam, tutam,
Yuxum da gəlmir ki, doyunca yatam.
Hardasan, ay anam, hardasan, atam?
O xoşbəxt günlərin həsrətindəyəm.

Şahidəm, yaşadım dar bir qəfəsdə,
Gözlərim də xəstə, qəlbim də xəstə.
Sanki duz basırlar yaramın üstə,
Kövrək duyğuların həsrətindəyəm.

DÜŞÜR YADIMA

Nə müddətdir ayrılmışam vətəndən,
O qayğısız illər düşür yadıma.
Gözlərimdə ana torpaq həsrəti,
Kipriyimdə sellər düşür yadıma.

İçimi yandırır o yaylaqların,
Şıdırğı leysanın, buz bulaqların.
Addım-addım gəzən o yamacların,
Cığırında izlər düşür yadıma.

Hay verirəm səsə, hay verənim yox,
Ağlayıram, könül ovudanım yox.
Ölüyəm, diriyəm, heç bilənim yox,
Anamın laylası düşür yadıma.

Tale bizi haralara apardı,
Ömrümüzdən cavanlığı qopardı.
Bu nə dərddi, bu nə ağrı, nə qardı?
O xoş xatirələr düşür yadıma.

Şahidəm, xəstəyəm dərmanım vətən,
Bunu anlamaz ki, hər yoldan ötən.
Buxovam, qandalam ayağımda mən,
O həsrət yaralar düşür yadıma.

MƏNİM DOĞMA MƏMLƏKƏTİM

Qıvrılıram ilan kimi,
Səndən ayrı düşmək çətin.
Al qoynuna balan kimi,
Mənim doğma məmləkətim.

Öz yurdumun vurğunuyam,
Əli bağlı bir quluyam.
Adəm, Həvva, mən uluyam,
Əsirlərə işarətim,
Mənim doğma məmləkətim.

Atam talış, anam talış,
Həqiqəti dərk et çalış.
Yavaş-yavaş sən də alış,
Yayılıbdır şan-şöhrətim,
Mənim doğma məmləkətim.

Mərdlik hopub hər daşına,
Addımına, qarışına.
Aman, gəlmə qarğışına,
Boylanarsan yetim-yetim,
Mənim doğma məmləkətim.

Cəvahirim, mirvarimsən,
Yaqutumsan, yavərimsən.
Milyonlardan sən birimsən,
Cah-cəlallı bir şövkətim,
Mənim doğma məmləkətim.

Nələr gördün ki, göz açdın?
Köz-köz olub sən alışdın.
Bahar vaxtı qarlı qışdın,
Gözü yaşlı təbiətim,
Mənim doğma məmləkətim.

Hər millətə hörmətim var,
Talış boyda cənnətim var.
Azərbaycan dövlətim var,
Yoxdur başqa bir niyyətim,
Mənim doğma məmləkətim.

MƏHƏBBƏT ŞEİRLƏRİ

MƏN SƏNİ SEVİRDİM, SEVMİRƏM DAHA

Sən mənim çiçəkli baharım idin,
Bağçamda təzə-tər nübarım idin.
Mənə arzu idin, mənə kam idin,
Nədən birdən-birə batdın günaha,
Mən səni sevirdim, sevmirəm daha.

Eşqin göylərində uçan bir mələk,
İşıqlı sabahdın, nurlu gələcək.
İndi anladım ki, ay zalım fələk,
Dəyişdin hissləri bir oyuncağa,
Mən səni sevirdim, sevmirəm daha.

Sənə arzu dolu cahan gətirdim,
Gözəllik nə varsa, tamam gətirdim.
Ağrıya, acıya davam gətirdim,
Ümid bəsləmişdim uca allaha,
Mən səni sevirdim, sevmirəm daha.

Gəzdirdim qəlbimdə məhəbbətini,
Demə saxta imiş, yalançı imiş.
Oynatdın əlində təmiz eşqimi,
Satdın özgəsinə ucuz, ya baha,
Mən səni sevirdim, sevmirəm daha.

Şahidəm, itirdim bu tər gəncliyi,
Həm sevgi, həm varı, həm də dincliyi.
Əydi qürurumu, polad mənliyi,
Sınıq bir daxmam var, uçuq bir kaha,
Mən səni sevirdim, sevmirəm daha.

DOĞUM GÜNÜN MÜBARƏK

Həyat yoldaşıma

Bu gün doğum günün, təbriklər, gülüm,
Layiq bir hədiyyə tapa bilmirəm.
Gəlsənə ömrümü hədiyyə edim?
Düzüm mirvari tək sapa, bilmirəm.

Mən sənin şəminəm, sən pərvanəsən,
İllərdir oduma sən də yanırsan
Sehirsən, hikmətsən, nə xəzinəsən?
Vallah, bu tilsimdən qopa bilmirəm.

Ömrümün baharı, çiçəkli yazım,
Gözümdə mələyim, dilimdə nazım.
Sevdalı günlərdən bir dastan yazım,
Verimmi kitaba, çapa, bilmirəm?

Şahidəm, şeirimlə haqqın səsiyəm,
Sədaqət mülkünün təntənəsiyəm.
Ömrünün ən böyük hədiyyəsiyəm,
Başqa bir hədiyyə yapa bilmirəm.
Vallah bu tilsimdən qopa bilmirəm.

SƏNƏ VURULMUŞAM SƏNDƏN XƏBƏRSİZ

Məmməd İsmayılın şeirinə nəzirə

Dondum qarşısında lal baxışların,
Sənə vurulmuşam səndən xəbərsiz.
Elə zirvəsində uca dağların,
Dumandan xəbərsiz, çəndən xəbərsiz,
Sənə vurulmuşam səndən xəbərsiz.

Sən mələklər kimi ağ libasında,
Mən bu gözəlliyin ab-havasında.
Durmuşuq düz yolun tən ortasında,
Döngədən xəbərsiz, tindən xəbərsiz,
Sənə vurulmuşam səndən xəbərsiz.

Kimi axtarırdım, gör kimə düşdüm,
Bir göz qırpımında him-cimə düşdüm.
Elə ovsunladın tilsimə düşdüm,
Şeytandan xəbərsiz, cindən xəbərsiz,
Sənə vurulmuşam səndən xəbərsiz.

Allahım, qanad ver, uça bilmirəm,
Sirri başqasına aça bilmirəm.
Bəlkə bu taledi qaça bilmirəm,
Bəxt quşum qonubdur indən, xəbərsiz,
Sənə vurulmuşam səndən xəbərsiz.

Gecələr ruhumun cənnət bağıdır,
Kədər sığallayan bir darağıdır.
Gecələr ömrümün dərd ortağıdır,
Dönək gecələrə gündən xəbərsiz,
Sənə vurulmuşam səndən xəbərsiz.

Elə qürurluyam hünər dastanı,
Qoşun çək üstümə bütün cahanı.
Qəlbim Allahındı, neynirəm canı?
Namazdan xəbərsiz, dindən xəbərsiz,
Sənə vurulmuşam səndən xəbərsiz.

Eşqi-camalısan sən təbiətin,
Sənsiz yaşamaq da, ölmək də çətin.
Yox, öldürməkdirsə fikrin, niyyətin,
Gəl al bu canımı məndən xəbərsiz,
Sənə vurulmuşam səndən xəbərsiz.

SƏNSİZ NEYNƏYİRƏM BU XOŞBƏXTLİYİ

Gözlərim hər zaman axtarır, gəzir,
Bir an görməyəndə çox darıxıram.
Sən allah, beləcə qoy baxım sənə,
Bütün varlığımı orda tapıram,
Sənsiz neynəyirəm bu xoşbəxtliyi?

Sehirmi, hikmətmi vallah, bilmirəm,
Qorxuram görməsəm ürək dayana.
O qədər sən məni ovsunlamısan,
Dünya bir yanadır, sən də bir yana,
Sənsiz neynəyirəm bu xoşbəxtliyi?

Hara boylanıram səni görürəm
Bu kor gözlərim də məni aldadır
Sənsiz dünya boyda qəmi görürəm
Ən acı zəhər də sənlə bal dadır
Sənsiz neynəyirəm bu xoşbəxtliyi?

Nə qədər yaşasam, canımda can var,
Bütün ömrüm boyu sənə qul ollam.
Həsrətindən belə köçsəm dünyadan,
Yüz dəfə dirilsəm sənə vurullam,
Sənsiz neynəyirəm bu xoşbəxtliyi?

Kaş dönəydik bir cüt ağ göyərçinə,
Uçub səmalarda yuva quraydıq.
Qalxıb bu dünyanın göyərtəsinə,
Nakam sevgiləri dayandıraydıq,
Sənsiz neynəyirəm bu xoşbəxtliyi?

Hər kəs sevgisinə qovuşsun, ya rəbb,
Hicran atəşində heç kəs yanmasın.
Həyatdır, nə vaxtsa üz-üzə gəlsək,
Dodaqlar titrəyib pıçıldamasın,
Sənsiz neynəyirəm bu xoşbəxtliyi?

Şahidəm, sən mənim görən gözümsən,
Sənsiz gözlərimi necə açım ki?
Ruhumsan, qəlbimsən, mənim özümsən,
Özüm öz-özümdən necə qaçım ki?
Sənsiz neynəyirəm bu xoşbəxtliyi?

QOCALAQ GEDƏK

Gəl elə yaşıyaq, elə, sevgilim,
Ömrə naxış-naxış iz salaq gedək.
Dönək nağıllara, dönək dastana,
Bu eşqi dillərə söz salaq gedək.

Bizi ayırmasın ayrılıq, hicran,
Nə tufan, nə yağış, nə qar, nə boran.
Qoşa addımlayaq, bir ürək bir can,
Verək qol-boyuna, sarılaq gedək.

Gözəlliyin məni çaş-başa saldı,
Bu xumar hüsnünə tamaşa saldı.
Boylandıq baxışlar göz-qaşa saldı,
Köçək baxışlara, yurd salaq gedək.

Uyma gözlərdəki min kinayəyə,
Sevənlər tez düşür acı tənəyə.
Ya rəbb, döndər bizi cüt kəpənəyə,
Eşqin göylərinə ucalaq gedək.

Dəyişmərəm səni yüz gözəlliyə,
Donmuşam tapmadım söz gözəlliyə.
Şahid, bacarırsan döz gözəlliyə,
Nə olar, bir yerdə qocalaq gedək.

ŞAİRİN NAZIYLA OYNAMAQ ÇƏTİN

Düşmə bu sevdaya, ay ömrüm-günüm,
Şairin nazıyla oynamaq çətin.
Masanın üstündə bir qələm-dəftər,
Bir də şeir olacaq ilk məhəbbətin,
Şairin nazıyla oynamaq çətin.

Bu şair dünyası ayrı aləmdir,
Hərdən unutdurar sən ona yarsan.
Kağıza, qələmə vurğun olduğun,
Onda anlayarsan, onda duyarsan,
Şairin nazıyla oynamaq çətin.

Bəzən təndirində kündən küt gedər,
Çörək əvəzinə şeir yeyərsən.
Bəzən sözün mehi üşüdər səni,
Bəzən dodaqaltı pıçıldayarsan,
Şairin nazıyla oynamaq çətin.

Səni nəzmə çəkib şeirlər qoşar,
Unutdurub bir an dünya qəmini.
Düşüb sətir-sətir söz tilsiminə,
Seyrinə dalarsan ruh aləmini,
Şairin nazıyla oynamaq çətin.

Zaman qoşun çəkib tez qocaltsa da,
Ruhu cavanlaşan gənc çağındadı.
Çırpınır xəyallar əsarətində,
Hər zaman qafiyə sorağındadı,
Şairin nazıyla oynamaq çətin.

Kənardan nə qədər xoşbəxt görünsə,
Bir üzü kədərdi, bir üzü dərddi.
Şairə ömür-gün yoldaşı olmaq,
Həyatda ən böyük məsuliyyətdi,
Şairin nazıyla oynamaq çətin.

MƏHƏBBƏT MÜLKÜNÜN QALASIYAM MƏN

Bu söz sənətimlə yaratdım bir iz,
Neçə ürəklərdə qalasıyam mən.
Atam o dağlardı, anam da dəniz,
Deyəsən, Xəzərin balasıyam mən.

Dəli vurğunuyam sözün, sənətin,
Özüm də bilmirəm nədir niyyətim.
Şeir də cənnətim, söz də cənnətim,
Siz deyin, şairmi olasıyam mən?

Payız gecəsiyəm, külək də əsir,
Artıq güc tükənib, yolumu kəsir.
Ömür qaçaqaçda elə tələsir,
Ayrılıq nəğməsin çalasıyam mən.

Ruhumla göylərdə azad bir quşam,
Pərvanə deyiləm şam üstə coşam.
Hər qəlbdə elə bir yuva qurmuşam
Məhəbbət mülkünün qalasıyam mən.

TUT ƏLİMDƏN QOŞA GEDƏK BU ÖMRÜ

Qolunu boynuma dola, sevgilim,
Əvvəldən ta başa gedək bu ömrü.
Həyat nakam, dünya fani dünyadı,
Tut əlimdən qoşa gedək bu ömrü.

Gedək qəlbimizdə xoş arzu, dilək,
Bir yerdə sevinək, bir yerdə gülək.
Özünü dünyanın xoşbəxti bilək,
Dönək bir cüt quşa, gedək bu ömrü,
Tut əlimdən qoşa gedək bu ömrü.

Bölüşək hər zaman sevincimizi,
Yadlara verməyək öz sirrimizi.
Gəl elə sevək ki, bir-birimizi,
Əllidən yüz yaşa gedək bu ömrü,
Tut əlimdən qoşa gedək bu ömrü.

Bu yol qorxuludur, bu yol yamandır,
Bir az çiskini var, bir az dumandır.
Çaşıb tək gedərsən, getmə, amandır.
Bir olaq, baş-başa gedək bu ömrü,
Tut əlimdən qoşa gedək bu ömrü.

Şahidəm, ruhumla yurda bağlıyam,
Şairəm, bir az da xam xəyallıyam.
Sən o zirvələrdən, mən də dağlıyam,
Yaşadıqca yaşa, gedək bu ömrü,
Tut əlimdən qoşa gedək bu ömrü.

GƏL, BİR AZ BAŞINA DUZ DOLANDIRAQ

Sən bir gerçəkmisən, bəlkə röyadır,
Göydən gələn nursan, yoxsa bir çıraq?
Gözəlliyi əldən alan dünyadır,
Gəl, bir az başına duz dolandıraq.

Oğrun-oğrun baxan gör neçəsi var?
Baxışların, gülüm, yaxşı, pisi var.
Doğan hər sabahın bir gecəsi var,
Sevmirəm gecəni, şamı yandıraq,
Gəl, bir az başına duz dolandıraq.

Bürüyür könlümü dəli bir maraq,
Səni nəzmə çəkim, xəyallar quraq.
Bir qələm gətirin, bir də ağ varaq,
İlham pərimizi qanadlandıraq,
Gəl, bir az başına duz dolandıraq.

Alnım səcdəyədir, düz qibləgaha,
Səni and verirəm qadir allaha.
Heç vaxt boyun əymə vara, tamaha,
Bütün pislikləri qoy dayandıraq.
Gəl, bir az başına duz dolandıraq.

Yaşım o yaş deyil, düşmüşəm əldən
Yaşıllıq olarmı görən xəzəldən?
Şahidəm, qorxuram gözdən, nəzərdən,
Niyyəti pisləri lap utandıraq,
Gəl, bir az başına duz dolandıraq.

YARAŞIR

Vuruldum o qəfil təbəssümünə,
Sən gülüşə, gülüş sənə yaraşır.
Ucaldın ruhumun şah zirvəsinə,
Sən zirvəyə, zirvə çənə yaraşır.

Səmalardan zühur edən bir çıraq,
Tanrı payı düzə düzdü, haqqa haqq.
Bədən nazik, beli incə, tər buxaq,
Gözəllərə mərmər sinə yaraşır.

Artıb əl açanlar, qapı döyənlər,
Daşdan pul çıxaran, nimdaş geyənlər.
O yetim-yesirin haqqın yeyənlər,
Nə imana, nə də dinə yaraşır.

Gəl vurma sinənə, çox mənəm demə,
Günəşlə, ulduzla mən tənəm demə,
Hər üzü göyçəyə bir sənəm demə,
Ruhları gözəllər günə yaraşır.

Elə libas geyin rənginə düşsün,
Şahid, tanıyanlar görəndə çaşsın.
Libasın köhnəsi sənə yaraşsın,
Onsuz da təzəsi minə yaraşır.

GƏRƏK

Kaş ki, bu dünyada daş-qaşın olub,
Bəzənib boynuna taxaydın gərək.
Dönüb mirvariyə, göz yaşın olub,
Tək-tək yanağından axaydım gərək.

Görüşə gələrdim olsan da harda,
Dönərdim ulduza, bitərdim orda.
Önümdə buludlar, mən intizarda,
Sənə oğrun-oğrun baxaydım gərək.

Həsrətindən döndüm solğun boyağa,
Dərdim qan ağlayır, soruşma, qağa.
Barışa bilmirəm bu ayrılığa,
Od tutub şimşək tək çaxaydım gərək.

Şahid, yuxuların olmayacaq çin,
Ağla hönkür-hönkür, yan için-için.
Ömrümü verərdim bir görüş üçün,
Ruh kimi canımdan çıxaydım gərək.

SƏN MƏNİM ÖMRÜMƏ XOŞ GƏLDİN, GÜLÜM!!!

Kirpiyi mizrabdı, qaşları kaman,
Gözləri xumardı, ədası nazdı.
Əlimi qaldırıb haqq dərgahına,
Nə gədər şükr etsəm yenə də azdı,
Sən mənim ömrümə xoş gəldin, gülüm!

İlahidən gələn hədiyyə kimi,
Sən bir mələk kimi gəldin ömrümə.
Bir ağ göyərçinin qanadlarında,
Arzu, dilək kimi gəldin ömrümə,
Sən mənim ömrümə xoş gəldin, gülüm.

Qaranlıq gecəmin yanan çırağı,
Yoluma nur səpən dan ulduzumsan.
Hələ yazılmamış tale varağı,
Tanrı bəxşişimsən, könül ruzumsan,
Sən mənim ömrümə xoş gəldin, gülüm.

Nədən sən hamıdan doğmasan mənə?
Hey fikirləşirəm, tapa bilmirəm.
Eşqinlə uçuram, röyasan mənə,
Arıyam, çiçəkdən qopa bilmirəm,
Sən mənim ömrümə xoş gəldin, gülüm.

Şahidəm, taxtımın sultanıyam mən,
Varım, dövlətimdir təmiz məhəbbət.
Sevən ürəklərin qurbanıyam mən,
Bu da qazancımdır, verib təbiət,
Sən mənim ömrümə xoş gəldin, gülüm.

DAHA YAR BAŞINA HEÇ KƏS DOLANMIR

Sevgilər tükənib, yox ürəklərdə,
Gur yanan ocaqlar indi qalanmır.
Leylilər dəfn olub xatirələrdə,
Daha yar başına heç kəs dolanmır.

Hər üzdə gülənin yüz də dərdi var,
Əsir ömrümüzə xəzri, gilavar.
Ürəklər sərtləşib olub daş, divar,
Daha yar başına heç kəs dolanmır.

Ehtiyaclar bizi hər an haxlıyır,
Elçisiz, nişansız lap adaxlıyır.
Hərə öz başını zornan saxlayır,
Daha yar başına heç kəs dolanmır.

Qəlbləri fət edib pul məhəbbəti,
Tapan bəxtəvərdir, tapmayan müti.
Kim sevər naz ilə bir səfaləti,
Daha yar başına heç kəs dolanmır.

Hər zilin eşqinə bir bəm dolanır,
Ağ vərəq hüsnünə qələm dolanır.
Ocaqlar başına aləm dolanır,
Daha yar başına heç kəs dolanmır.

Qul tək əsir etdin pula ömrünü
Qupquru qurutdun, sula ömrünü.
O yar bədbəxt neynir tula ömrünü,
Daha yar başına heç kəs dolanmır.

Şahidi sevdaya ol salan indi,
Etməz ki, saf eşqi bir yalan indi.
Get yarın başına sən dolan indi,
Daha yar başına heç kəs dolanmır.

DARIXDIM

Şimşək nalə çəkdi, göylər ağladı,
Tamam qəribsədim, tamam darıxdım.
Yağış damcıları telinə dəydi,
Od saldı sinəmə kaman, darıxdım.

Oyandı bəlalı xatirələrim,
Uşaqlıq illərim, gənclik illərim.
Gözəllər ram edən o gur tellərim,
Hanı o sevgili zaman, darıxdım.

Bir xəfif duyğudan gözüm nəm aldı,
Bir az kədər aldı, bir az qəm aldı.
Çökdü yaddaşıma bulud, çən aldı,
Göz gözü görmədi, duman, darıxdım.

Bu dünyanın ilıq yazın sərt gördüm,
Əyrisin sərt gördüm, düzün sərt gördüm.
Hələ uşaq ikən üzün sərt gördüm,
Anam qəfil köçdü, aman, darıxdım.

Yanıqlı bir kaman, inləyən neydim,
Deyəsən, dünyanın xətrinə dəydim.
Bir zaman gəncliyin sahilindəydim,
Sahillər, darıxdım, liman, darıxdım.

Elə kövrəlmişəm, bir himə bəndəm,
Duyğuma əsirəm, hissimə bəndəm.
Şahidəm, Kərəm tək bir simə bəndəm,
Aşıq, çal "Kərəmi", yaman darıxdım.

DÜNYAYA AİD ŞEİRLƏR

VALLAHİ, BU DÜNYA DÜZƏLƏN DEYİL

Naşılar oynadır indi sükanın,
Dartsan da düz yola o, gələn deyil.
Nizamın pozdular qoca dünyanın,
Vallahi, bu dünya düzələn deyil.

Kimə əl uzatdıq o, başa çıxdı,
Əllər göydə qaldı, əl boşa çıxdı.
Nədən zəhləm getdi, cüt, qoşa çıxdı,
Vallahi, bu dünya düzələn deyil.

Qucaqda tumarla, bələkdə gəzdir,
Yayın qızmarında kürəkdə gəzdir.
Belinə bağla, ya xərəkdə gəzdir,
Vallahi, bu dünya düzələn deyil.

Deyirlər döz, qağa, döz, gələ bəlkə,
Ömür çiçəkləyə, yaz gələ bəlkə.
Çox ümid eylədik düzələ bəlkə,
Vallahi, bu dünya düzələn deyil.

Əlli il qul etdim ona bu ömrü,
Döndərdi yumağa, yuna bu ömrü.
Şahid, o dünyada sına bu ömrü,
Bu dünya vallahi, düzələn deyil.

BƏS NİYƏ ARXAMCA AĞLADIN, DÜNYA

Həyat bir tamaşa, baxdım doymadım,
Dil-ağız eylədim dağladın, dünya.
Demək bu qədərmiş bu filmin sonu,
Bəs nədən arxamca ağladın, dünya?

Əvvəl dərdi verdin azımdan böyük,
Bir az da artırdın dizimdən böyük,
Axırda yüklədin özümdən böyük,
Sonra da dörd nala tovladın, dünya.

Şikarı qaçırtdın ovçu üstünə,
Boylandın, həzz aldın, durdun qəsdinə.
Nə dedik ki, belə dəydi şəstinə?
Yaxşıları bir-bir ovladın, dünya.

Sordun zəli kimi qanı damardan,
İstisən alovdan, soyuqsan qardan.
Ən gözəl şəklimi asdın divardan,
Üstünə qara lent bağladın, dünya.

Məkirsən, hiyləsən, nifaq salansan,
Əvvəli gerçəksən, sonu yalansan.
Həm öldür, həm car çək ürək yanansan,
Qırx gün əzizlədin, qoxladın, dünya.
Bəs nədən arxamca ağladın, dünya?

A DÜNYA

Şirin-şirin gəlişimlə öyündüm,
Körpə idim, nə qanmışam, a dünya.
Üzün döndü qara libas geyindim,
Onda bildim aldanmışam, a dünya.

Çox qarışdı dərdli başım özümə,
Qayğılarım tor da çəkdi gözümə.
Danlanıram elə özüm-özümə,
Altmışımda oyanmışam, a dünya.

Bu qəflətdən oyanmağın nə xeyri,
Lap düz gedim, kəsə gedim, ya əyri,
Qayıdarmı ötən illər heç geri?
Qoltuğunda sallanmışam, a dünya.

Bəxtsiz ömrü quru sərdim yaş getdi,
Sevgi gedən ürəklərə daş getdi.
Padşahlar da taxtdan əli boş getdi,
Nə verdin ki, qazanmışam, a dünya?

Vurulmusan bu əyri göz, qaşıma,
Zəhər qatdın çörəyimə, aşıma.
Torpağını indi gəl tök başıma,
Hüzurunda dayanmışam, a dünya.

NƏYİNİ SEVƏK Kİ BELƏ DÜNYANIN

Kəssə də qılıncın uzuna, enə,
Çox da mənəm, deyib vurma sinənə.
Elə təmtəraqlı toy tutar sənə,
Qaldırma səsini zilə dünyanın,
Nəyini sevək ki belə dünyanın?

Dağ çəkir, zövq alır, ona bu xoşdu,
Çölü bərbəzəkdir, içi bomboşdu.
Axırı ölümdür, axırı puçdu,
Yığsan da xurcuna şələ dünyanı,
Nəyini sevək ki belə dünyanın?

Doymadıq, hey yığdıq qan-tərimizlə,
Sığmadıq dünyaya qədərimizlə.
O qədər yüklədik dərd-sərimizlə,
Oturub gəmisi milə dünyanın,
Nəyini sevək ki belə dünyanın?

Quyruq bulayanlar indi bəy olub,
Alaq otlarımız bər-bəzək olub.
Kasıbların yükü dərd çəkmək olub,
Dönüb nadanları filə dünyanın,
Nəyini sevək ki belə dünyanın?

Elə sanırdım ki, sevgili yardı,
Ömrə naxış vuran bir ilk bahardı.
Ata-anamızı aldı apardı,
Neçə hiyləsi var hələ dünyanın,
Nəyini sevək ki belə dünyanın?

Bu dünya güzgüdür “ayna”, qardaşım,
Uyma sovqatına, payına, qardaşım.
Nə hava çalırsa oyna, qardaşım,
Götür zurnasını pilə dünyanın,
Nəyini sevək ki belə dünyanın?

Necə gəlmişdiksə, elə də getdik,
Əlləşdik, vuruşduq nə əldə etdik?
Şahid, çəkic götür qəbr evin get tik,
Ömrümüzü verdik yelə dünyanın,
Nəyini sevək ki belə dünyanın?

BU DÜNYANIN SONU ÇATIB DEYƏSƏN

Hər ömrün sonunda bir ayrılıq var,
Hicran yelidirmi üstümə əsən?
İçimdə bir nisgil, bir ağrılıq var,
Bu dünyanın sonu çatıb deyəsən.

Göylər başımıza çirkab ələyir,
Yollara dərd səpir, kədər çiləyir.
Kasıb daxmasında ilan mələyir,
Bu dünyanın sonu çatıb deyəsən.

Varlı həcilərdi bu dövrün tacı,
Kasıblar bir tikə çörək möhtacı.
Sağı kərbəlayi, solunda hacı,
Bu dünyanın sonu çatıb deyəsən.

Nizamın pozubdu urus dünyanın,
Bir yandan bu zalım virus, dünyanın.
Lap zayı çıxıbdı dürüst dünyanın,
Bu dünyanın sonu çatıb deyəsən.

Sular da bulanıb süz, lili olur,
Gah palçığı olur, gah gili olur.
Övladlar valideyn qatili olur,
Bu dünyanın sonu çatıb deyəsən.

Mömin min hoqqadan, sehirdən çıxır,
Bu ocaqdan girir, o pirdən çıxır,
Şairlər hirsini şeirdən çıxır,
Bu dünyanın sonu çatıb deyəsən.

Namus da, vicdan da, ar da satılır,
Alnım qırışlanır, qaşım çatılır.
On oğul atası tənha atılır,
Bu dünyanın sonu çatıb deyəsən.

Bu duman deyəsən ayrı dumandı,
Nalədi, fəryaddı, neydi, kamandı.
Rəhm eylə bizlərə, Allah, amandı,
Bu dünyanın sonu çatıb deyəsən.

BU DÜNYA VƏFALI YAR OLAN DEYİL

Tutma bu dünyanı sən ikiəlli,
Bu dünya vəfalı yar olan deyil.
Uzağı yetmişik, ya da ki, əlli.
Heç yüzü dartmağa kar olan deyil,
Bu dunya vəfalı yar olan deyil.

Əvvəli layladır, ana laylası,
Yaman şirin olur cana laylası.
Girir min libasa, dona laylası,
Hiylədir, fitnədir, zar olan deyil,
Bu dünya vəfalı yar olan deyil.

Hər şey ötəridir, hər şey keçimli,
Hər şey ölçülüdür, hər şey biçimli.
Bir insan ömürü bir su içimli,
Yüz loğman yığıla var olan deyil,
Bu dünya vəfalı yar olan deyil.

Neçə padişahlar aldadıb yorub,
Neçə pəhləvanın kürəyin vurub.
Kimlər yola salıb, kimlərlə durub,
Sənin yoxluğunla dar olan deyil,
Bu dünya vəfalı yar olan deyil.

Elə sanma, Şahid, bəysən, ağasan,
Aldanma ha, sənə gəlməsin asan.
Bu zurna deyil ki, basıb çalasan,
Kaman olan deyil, tar olan deyil,
Bu dünya vəfalı yar olan deyil.

ONDA GÖRDÜM VƏFASINI DÜNYANIN

Bir sevginin atəşinə bələndik,
Narın-narın bir ömürə çiləndik.
Özü boyda ələyində ələndik,
Onda gördüm vəfasını dünyanın.

Qəfil gələn burulğanı elə sərt,
Anlayan da, dinləyən də, görən pərt.
Kimə sevinc, kiminə də verir dərd,
Onda gördüm vəfasını dünyanın.

Hər birimiz oyunçudur sonunda,
Əzrayıldır baş hakimi oyunda.
Kirlənirik, lillənirik suyunda,
Onda gördüm vəfasını dünyanın.

Libasını əynimizə tərs geyir,
Bir yarımçıq ömrə dayan, bəs, deyir.
Qucağında ana ilan bəsləyir,
Onda gördüm vəfasını dünyanın.

Bir yazıyıq, həm oxudur, həm silir,
Bir can quru nəfəsə qul kəsilir.
Bənövşələr ayaq altda əzilir,
Onda gördüm vəfasını dünyanın.

Bu dünyanın toruna gəl düşmə sən,
Elə qayna hər qazanda bişmə sən.
Şahid, köhnə yaraları eşmə sən,
Onda gördüm vəfasını dünyanın.

MƏN BELƏ DÜNYADA YAŞAYAMMARAM

Üzünü tərs gördüm qoca dünyanın,
Ömrümüz günahkar, süfrəmiz haram.
Məkirli yaltaqla dolub dörd yanım,
Mən belə dünyada yaşayammaram.

Yüz il ibadətin yoxdur savabı,
Varlı varı tapır, kasıb kasıbı.
Hər zaman boş qalır yetimin qabı,
Mən belə dünyada yaşayammaram.

Allah da hayfını məzlumdan çıxır,
Bir yandan bağlayır, bir yandan sıxır.
Qeyrətli atadan biqeyrət çıxır,
Mən belə dünyada yaşayammaram.

Dupduru bulaqdan indi lil gəlir,
Çaqqallar dönüblər filə, fil gəlir.
Dünənki əyrilər, bu gün mil gəlir,
Mən belə dünyada yaşayammaram.

Tülkü gördüm, məğrur dayanıb tində,
Bir sürü pələngi azdırdı çəndə.
Allahsıza dönüb naşükür bəndə,
Mən belə dünyada yaşayammaram.

A Şahid, gədalar hər yerdə başdı,
Dünya başdan-başa qanlı savaşdı.
Haqqı söyləyənlər kirə bulaşdı,
Mən belə dünyada yaşayammaram.

DÜNYA RƏSSAMDIR

Bu dünya rəssamdır, biz də fırçası,
Salır barmağına, oynadır bizi.
Gah çəkir dağlara soyuq buz kimi,
Gah salır qazana qaynadır bızi.

Nə əvvəli bəlli, nə sonu bəlli,
Qara torpağımı bizə təsəlli?!
Tutur yaxamızdan o iki əlli,
Körpə uşaq kimi danladır bizi.

İllərlə qazanan təmiz ad sanın,
Keçir qarmağına yalan, böhtanın.
Hərdən də iblisin, şərin, şeytanın,
Mindirir atına, cinlədir bizi.

Bəzən gur dəlisov ləpələr kimi,
Damcısı sərt olur qəlpələr kimi.
Bəzən də ucaldır zirvələr kimi,
Qaldırır başına enlədir bizi.

Bu dünya cəzasız cani dünyadır,
Zamana hökm edən ani dünyadır.
Salır yaddaşına, fani dünyadır,
Məzarlar başında anladır bizi.

OZAN BABA, GƏL LAYLAMI ÇAL İNDİ

Bu dünyanın nə duzu var, nə dadı,
Zəhər dadır şəkər indi, bal indi.
İnanmıram, dünya həmin dünyadır,
Ozan baba, gəl laylamı çal indi.

Naşıların əlindədir sükanlar,
Arıma göz, varıma göz dikənlər.
Həqiqətə qara torba tikənlər,
Qalmayıb heç yaşamağa hal indi,
Ozan baba, gəl laylamı çal indi.

Dualar da ünvanına yetmir heç,
Təbiət də ipə-sapa yatmır heç.
Fəsillərin sürpirizi bitmir heç,
Tökülürlər meyvələr də kal indi,
Ozan baba, gəl laylamı çal indi.

Harda qaldı şal bağlayan nənələr,
Ar, ismətli, ağ örpəkli sonalar.
Mələk kimi kaş göylərdən enələr,
Dəbdən düşüb örpək indi, şal indi,
Ozan baba, gəl laylamı çal indi.

Nədən görən çəkilir ki, tor gözə?
Kor sevgidən minlər gedir güdaza.
Bir tərifə, bir işvəyə, bir naza,
Həsrət çəkir yanaqlarda xal indi,
Ozan baba, gəl laylamı çal indi.

Hər yetənə hiylə, kələk qurma gəl,
Dilsizləri incitmə gəl, vurma gəl.
Boynubükük bənövşəni qırma gəl,
Nə olsun ki, boynun əyib, lal indi,
Ozan baba, gəl laylamı çal indi.

Qəfil gələn atəşinə karıxdım,
Dirəyindən qopdu, aşdı bu taxtım.
Anam köçdü, atam köçdü, darıxdım,
Növbə mənim, di salamat qal indi,
Ozan baba, gəl laylamı çal indi.

QARIŞIQ ŞEİRLƏR

ƏLVİDA

Yaşayırıq biz itirə-itirə,
Dünən görüş yeri, bu gün son vida.
Gələnlər qonaqdır, gedən xatirə,
Bacarmır deməyə dilim, - əlvida.

Aynaya baxıram, bu mən deyiləm,
Üzümdə qırışlar, qaşlarımda dən.
Axı ayrısıydım, həmən deyiləm,
Qapqara saçlarım, telim, əlvida.

Tükü tükdən seçən ələyimiz yox,
Düşmənə güc gələn biləyimiz yox.
Qohuma, qonşuya köməyimiz yox,
Millətim, əlvida, elim, əlvida.

Yanmasın dərdimə insanlar mənim,
Bahar nişanəsi, a göy səmənim,
Nərgizim, bənövşəm, tər yasəmənim,
Ətirli bağçalar, çölüm, əlvida.

Bu dünya malında gözüm qalmadı,
Nitqim də tutuldu, sözüm qalmadı.
Daha yaşamağa dözüm qalmadı,
Ay xumar baxışlım, gülüm, əlvida.

1993 cü il

NEYNƏYİM

Ya rəbb, bu nə tale, bu necə gündür,
Alır başım üstün kədər, neynəyim?
Xəyal da rahatlıq verməyir mənə,
Salır yaddaşıma nələr, neynəyim?

Yoruldum dərdimi gizli tutmaqdan,
Pərvanələr kimi oda yanmaqdan.
Zalım fələk hələ dərdi qanmaqdan,
Qəm üstünə qəmlər ələr, neynəyim?

Arzusuz bir insan yelkənsiz gəmi,
Amansız sulara qovuşacaqdır.
Nə vaxt quruyacaq gözümün nəmi,
Nə vaxt ağ gününə qovuşacaqdır?

İllər cəllad kimi durub qəsdimə,
Qəlbimə sancılmış qılıncdır, oxdur.
Heç xatırlamıram ki, o xoş günləri,
Əvvəli yox idi, sonu da yoxdur.

Şahidəm, gəl sən ol dərdimə dərman,
Bəxtsiz taleyimə arzu ol, kam ol.
Son ümid yerimsən qırma könlümü,
Qaranlıq gecəmə çıraq ol, şam ol.

HƏLƏ BİZ

Nə gələcək başımıza demirlər,
Xam-xəyallı diləkdəyik hələ biz.
Əcnəbilər qızıl balıq yemirlər,
Üçüncü növ çörəkdəyik hələ biz.

Ardı-arda rəndələyib ütdülər,
Arsız alaq otları tək bitdilər.
Qonşularım Marsa uçub getdilər,
Hiylədəyik, kələkdəyik hələ biz,
Yaman çərxi-fələkdəyik hələ biz.

Böyüdük də uşaq kimi baxdılar,
Yubandıqda dalımızca çıxdılar.
Əzizləyib qucaqlara sıxdılar,
Əlli yaşda bələkdəyik hələ biz,
Yaman çərxi-fələkdəyik hələ biz.

Hoqqabazlar, ömrü yalan sürənlər,
Yar-yamaqlı, köhnə palan sürənlər.
Atdan düşüb "ayropalan" sürənlər,
Üç təkərli xərəkdəyik hələ biz,
Yaman çərxi-fələkdiyik hələ biz.

Əlləşirik, vuruşuruq artmırıq,
Dərd də gecə qonaq gəlir, yatmırıq.
Qocalırıq, ahıl yaşa çatmırıq,
Ələnməyə ələkdəyik hələ biz,
Yaman çərxi-fələkdəyik hələ biz.

Villalardı, göydələnib baş-başa,
Hardan baxsan film kimi tamaşa.
Şahid, uçuq daxmada sən get yaşa,
Yelçəkənli küləkdəyik hələ biz,
Yaman çərxi-fələkdəyik hələ biz.

ÖMÜR QOCALIĞA APARIR BİZİ

Gəlib çatdıq daha ahıl yaşına,
İllərə buraxdıq taleyimizi.
Aldı bir pay kimi sədəqə kimi,
Bu dilənçi illər gəncliyimizi.

Çəkdi üstümüzə sərt qılıncını,
Döndü qırışlara zamanın izi.
Qolda güc tükəndi, dizlərdə taqət,
Ömür qocalığa aparır bizi.

Deyirlər hər yaşın öz gözəlliyi,
Kim deyir qoy desin, cəfəngiyyatdır.
Qalxmağa yoxdursa taqətim, gücüm,
Hansı gözəllikdir, hansı həyatdır.

Daha o əvvəlki adam deyiləm,
Məni məndən alan illər günahkar.
Özüm özümə də özgəyəm, yadam,
Saçıma dən salan tellər günahkar.

Daha o əvvəlki məhəbbət də yox,
Sonda bir xatirə ötən illərdən.
Daha o əvvəlki nağıllar da yox,
Alma da düşməyir bizə göylərdən.

Bilmirəm dərdimi kimə söyləyim,
Görəsən söyləsəm kim anlar məni?
Şahidəm, gecələr yuxum da gəlmir,
Qoymayır yatmağa xəyallar məni.

ÖMRÜMÜ

Tanrı göylərdəki buludlar kimi,
Veribdir küləyə, yelə ömrümü.
Yağışlar isladır, günəş qurudur,
Söyləyin, kim sevər kölə ömrümü?

Sanki bir dumanam, çiskinəm, çənəm,
Talesiz kim varsa, bil ki, o mənəm.
Saralmış zəmiyəm, qurumuş dənəm,
Nə qədər istəsən ələ ömrümü.

Bal kimi içirtdin, zəhərmiş demə,
Məni çapmaq üçün yəhərmiş demə.
Bir qanlı-qadalı səhərmiş demə,
Düşmənə qıymaram belə ömrümü.

Karvanım da gedir, yarı yoldadı,
Əcəl saldı tora, indi tordadı.
Bir ayağım burda, biri gordadı,
İndi kəfən gətir bələ ömrümü,
Söyləyin, kim sevər kölə ömrümü?

BACIM, SİZİ ZİYARƏTƏ GƏLMİŞİK

Ömür qısa, həyat məchul, gün yarı,
Yaxşı, ya pis, ömrümüzü bölmüşük.
Bu ömrün yox etibarı, ilqarı,
Bacım, sizi ziyarətə gəlmişik.

Bu həyatda sevinc də var, dərd də var,
Hansı çoxdur, tanrı payı? Dinmirəm,
Bu yollarda eniş də var, sərt də var,
Bir də nə vaxt görüşərik, bilmirəm.

Qoşulmuşuq qəm karvanın tərkinə,
Hey gedirik biz itirə-itirə.
Bu dünyanın axırı nə, ilki nə?
Hər ötən gün bir gecəyə xatirə.

QALANDA GÖRDÜM

Fələyin köksümə vuran zərbəsin,
Ömür çiçəklərim solanda gördüm.
Dünyanın ən böyük qəm mənzərəsin,
Bir ana saçını yolanda gördüm.

Bülbül qəmli nota kökləyib səsin,
Alıblar əlindən bağın, dərəsin.
İgid oğulların Vətən sevgisin,
Bu torpaq uğrunda öləndə gördüm.

Dünyanın dərdləri bükdü qəddimi,
Qoruya bilmədim şux qamətimi.
Ovuc içi qədər səadətimi,
Şeirimə məhəbbət olanda gördüm.

Şahidəm, alışdı bağrımın başı,
Gizlədə bilmədim mən bu təlaşı.
Axırda iki şey: bir məzar daşı,
Bir də ki, yaxşılıq qalanda gördüm.

ƏLLƏRİ QIZIL BACIM

Könül bacıma ithaf edirəm

Sonaların sonası,
Gözəlliyin aynası.
Baxtıma taxtım, tacım,
Əlləri qızıl bacım.

Ömrümüzə çıraqsan,
Müəmmasan, maraqsan.
Yazılmamış varaqsan,
Dərdimizə əlacım,
Əlləri qızıl bacım.

Tanrı dayağındadı,
Nuru ocağındadı.
Şair sorağındadı,
Uca dağlar yamacım,
Əlləri qızıl bacım.

Haqdan gələn mələksən,
Hamımıza gərəksən.
Sən burdasan, ürəksən,
Hər zaman ehtiyacım,
Əlləri qızıl bacım.

HÜNƏRİN VAR İNDİ YAŞA

İndən belə illər gələ,
Çatmaz dünya, “düz” vaxtına.
Çoxmu günah eylədin ki?
Vaxtsız yağdı qar baxtına,
Bu qar saldı lap çaş-başa.
Hünərin var indi yaşa.

Ayrılıqlar saldı köçün,
Ağlayıram için-için.
Bu bir qarın çörək üçün,
Əsir düşdük dağa-daşa,
Hünərin var indi yaşa.

Hər əllərdə bir telefon,
Zəhərləndi irs, genefon.
Uzananda da çək xofun,
Qorxursan kimsə paylaşa,
Hünərin var indi yaşa.

Əməliyyata yarım gedib,
Kəsdiribdir burun gedib.
Arıqladıb qarın gedib,
Pullar gedir gözə, qaşa,
Hünərin var indi yaşa.

Şərəf getdi, şöhrət getdi,
Çoxlarında qeyrət getdi.
Adiləşdi, heyrət getdi,
Filmə bənzər bir tamaşa,
Hünərin var indi yaşa.

Hisslərimiz bəşəri də,
Haqq sözünün kəsəri də.
Allahın şah əsəri də,
Dəymir indi beş quruşa,
Hünərin var indi yaşa.

At oynadır ağ yalanlar,
Xalq malını talayanlar.
Araiklər, dartanyanlar,
Çağrılmamış keçir başa,
Hünərin var indi yaşa.

Nə içkili oldum, nə dəm,
Basmadım yad yerə qədəm.
Hardan çıxdı bu Xoşqədəm?
Tapıb mənə bir Nataşa,
Hünərin var indi yaşa.

Hər yan bolluq, aşıb-daşdı,
Dil qurudu, göz qamaşdı.
Əlim yetmir, cibim boşdur,
Şahid, endir daşı başa,
Hünərin var indi yaşa,
Hünərin var indi yaşa.

İNANMA

Fəsillər dəyişib tökdü barımı,
Məhv etdi bağçamda ilk nübarımı.
Boğdu beşiyində arzularımı,
Payıza inanma, yaza inanma!

Sultanlar sarayda taxtın itirdi,
Zaman öz saatın, vaxtın itirdi.
Eşitsən bir kasıb baxtın itirdi,
And olsun allaha, sözə inanma!

Qürbətdə yüz dostun, sirdaşın ola,
Təpədən dırnağa daş-qaşın ola.
Öləndə qızıldan baş daşın ola,
O daş ayrılığa dözə, inanma!

Nanəcib düzəlməz can versən belə,
İmkan tapsa səni verəcək ələ.
Bütün el yığıla, nəsihət elə,
Bu şəxs əməlindən bezə, inanma!

İstər padşah ola, ümmanı olsa,
Dirilik suyundan dərmanı olsa,
Allahın ömrünə fərmanı olsa,
Əzrayıl orada aza, inanma!

Arxada pusqu var, qarşıda tələ,
A Şahid, şükr eylə bu günə hələ.
Ömür də yollar tək qısalır belə,
Kim desə çatacaq yüzə, inanma!

HƏR KƏS KİŞİ KİMİ YAŞIYA BİLMİR

Neçə boz sifətlər gördüm dünyada,
Hər kəs kişi kimi yaşaya bilmir.
Bu ömür karvanın ana təbiət,
Sükanın veribdi naşıya, bilmir,
Hər kəs kişi kimi yaşıya bilmir.

O qədər qaraya ağ bələnib ki,
O qədər saçlara qar ələnib ki,
O qədər vicdanlar ləkələnib ki,
Qoşqular, kotanlar qaşıya bilmir,
Hər kəs kişi kimi yaşıya bilmir.

İldə neçəsini alıb boşayan,
Haram pullar ilə yeyib yaşayan,
Boynunda da qızıl xalta daşıyan,
Kişilik adını daşıya bilmir,
Hər kəs kişi kimi yaşıya bilmir.

Kimi süfrəsiylə özünü öyür,
Kimi qaşığını boşuna döyür.
Kimi qızmar yayda elə üşüyür,
Kimi sərt qışında üşüyə bilmir,
Hər kəs kişi kimi yaşıya bilmir.

Yaman yığılmışıq boğaza, cana,
Olmayan bir vicdan necə oyana?
Qara çirkablara, şərə, böhtana,
Ömrü kəbin düşüb, boşıya bilmir,
Hər kəs kişi kimi yaşıya bilmir.

Nə əlində çomaq, nə ağ atlı ol,
Nə göylərnən gedən bir qanadlı ol.
Şahid, çalış bir az ehtiyatlı ol,
Tanrı öz vurduğu ləkəni silmir,
Hər kəs kişi kimi yaşıya bilmir.

BİR TƏBƏSSÜM İLİ OLSUN

İstəmirəm ən zirvəli,
Əl çatmaz bir dağım olsun.
İstəmirəm bar-bəhrəli,
Gül-çiçəkli bağım olsun.

İstəmirəm nə bir dəvəm,
Nə də nəhəng filim olsun.
İstəmirəm o həyatı,
Dastan olsun, film olsun.

İstəmirəm qızıl balıq,
Bir danışan dili olsun.
İstəmirəm o gur səsi,
Bəmi olsun, zili olsun.

İstəyirəm heç bir zaman,
Bir körpə də ağlamasın.
İstəyirəm sevinc olsun,
Ürək qubar bağlamasın.

İstəyirəm barış olsun,
Göy səmalar qaralmasın.
Gözəllikdən yarış olsun,
Ağ bənizlər saralmasın.

İstəyirəm şeir yazaq,
Hər sətirə alqış olsun.
Fəsil vaxtsız dəyişməyə,
Yay yay olsun, qış qış olsun.

İstəyirəm anam gələ,
İşıq saça qaranlığa.
Hicran köçün çəkib gedə,
Xoşbəxt olaq bir anlığa.

İstəyirəm ocaq yana,
İstiliyi, külü olsun.
İstəyirəm hər gələn il,
Anaların çöhrəsində,
Bir təbəssüm ili olsun.

HƏYATDI DA, YAŞAYIRIQ

Öz yayından çıxmış oxuq,
Bir gün acıq, bir gün toxuq.
Bu gün varıq, sabah yoxuq,
Həyatdı da, yaşayırıq.

Kim çörəyin quru yeyir,
Kimi balıq, kürü yeyir,
Yüzü baxır, biri yeyir,
Həyatdı da, yaşayırıq.

Gah sökürük, gah tikirik,
Gecə, gündüz hey əkirik.
Köks ötürüb dərd çəkirik,
Həyatdı da, yaşayırıq.

Qazanc da yox üçdən, beşdən,
Pul da çıxmır indi daşdan.
Üz-göz olub dost-tanışdan,
Həyatdı da, yaşayırıq.

Nə saman var, nə köpüyü,
Nə alqışı, nə çəpiyi.
Şairlərin yox qəpiyi,
Həyatdı da, yaşayırıq.

“Atanşik”lər yaman artdı,
Bir əyri yüz düzü dartdı.
Allaha da ata-atdı,
Həyatdı da, yaşayırıq.

Sağ gəzirik, sol gedirik,
Uzun, qısa yol gedirik.
Subaylanıb dul gedirik,
Həyatdı da, yaşayırıq.

Kim əlləri cibdə gəzir,
Kim “xammer”də, “cip”də gəzir.
Kim pedallı sepdə gəzir,
Həyatdı da, yaşayırıq.

Gün də batır, ay da çıxır,
Qış da bitir, yay da çıxır.
Yas da düşür, toy da çıxır,
Həyatdı da, yaşayırıq.

Namus, qeyrət, ar da getdi,
Lap həyalı yar da getdi.
Bərəkət də, bar da getdi.
Həyatdı da, yaşayırıq.

Hey yazırsan, Şahid, yaman,
Şairsənmi, yoxsa güman?
Göstərəcək onu zaman,
Həyatdı da, yaşayırıq.

QOCALIRIQ

Zaman çapdı bizi köhlən at kimi,
Qırışdı alınlar, üz, qocalırıq.
Babalar yüz yaşda qocalmadılar,
Əlliyə çatmamış biz qocalırıq.

Dörd yandan nazənin rənalar gələ,
Tellərində min rəng, min çalar gələ,
Nazlana-nazlana sonalar gələ,
Çəkmir diqqətinə göz, qocalırıq,
Əlliyə çatmamış biz qocalırıq.

Dinəndə möminik, əməldə sərxoş,
Hələ göz açmamış təməldə sərxoş.
Böyüdük əqildə, kamalda sərxoş,
Saqi, süz badəni, süz, qocalırıq.
Əlliyə çatmamış biz qocalırıq.

Qulaqlar kütləşib səs telə yatmır,
Əyib şəkləsək də yenə də çatmır.
Şübhələr vallahi, bizi aldatmır,
Dildə kəkəliyir söz, qocalırıq,
Əlliyə çatmamış biz qocalırıq.

Gör neçə arzular yarımçıq bitdi,
Döndü xatirəyə, cavanlıq getdi.
Oyan, ey bixəbər, bu həqiqətdir,
Çarə barışmaqdı, döz, qocalırıq,
Əlliyə çatmamış, biz qocalırıq.

Verən də allahdır, vaxtsız biçən də,
Dünya gözəlləşdi ömür köçəndə.
Qoca deyir, indi yoldan keçən də,
Sahid, əllərini üz, qocalırıq.
Əlliyə çatmamış, biz qocalırıq.

CİBLƏRİMDƏN VARAQ ÇIXIR

Əlli yaşa çatdım hələ bir şairin cibindən babat pul çıxartdığını görmədim. Çıxanda da, ya qələm çıxır, ya varaq çıxır. Bu mövzu məni çox duyğulandırdı. Beləliklə bu şeir yarandı.

Şeir yazan barmağımla,
Nə əkirəm qurağ çıxır.
Əl gicişir, pul gəzirəm,
Ciblərimdən varağ çıxır.

Əlli illik dağı aşdım,
Qismətimlə mən barışdım.
Deyəsən, lap kasıblaşdım,
Yavaş-yavaş sorağ çıxır,
Ciblərimdən varağ çıxır.

Qazan asıb qaynadıram,
Bir çimdik də duz atıram.
Hey qaşığı fırladıram,
Nə ət çıxır, nə yağ çıxır,
Ciblərimdən varağ çıxır.

Ya bərbər ol, ya sürücü,
Ya dülgər ol, ya hörücü.
Verməginən şeirə gücü,

Şeirdən nə maraq çıxır?
Ciblərimdən varaq çıxır.

Fələyin tərs qanunu var,
Kələkbazdır, oyunu var.
Birinin yüz milyonu var,
Yüzündən bir daraq çıxır,
Ciblərimdən varaq çıxır.

Vay o gündən düşə dara,
Arvad gəzib pul axtara.
Yazıq şair üzüqara,
Görən varmı ki, sağ çıxır?
Ciblərimdən varaq çıxır.

Min hiylə, min kələk çıxa,
Ələməyə ələk çıxa,
Hər deşikdən mələk çıxa,
Mənə üzdən iraq çıxır,
Ciblərimdən varaq çıxır.

Şahidəm, nə ləl, nə dürəm,
Ağladıram, güldürürəm.
Tamahımı öldürürəm,
Şeirlərim də çağ çıxır,
Ciblərimdən varaq çıxır.

TƏKİ CANIM SAĞLAM OLA

İstəmirəm coşub, daşam,
Dağı aşam, düzü aşam.
İstəmirəm yüzü aşam,
Təki canım sağlam ola.

Heç olmasın hay-haraylar,
Nə dəbdəbə, nə saraylar.
Bir analı illər, aylar,
Bir də uçuq daxmam ola,
Təki canım sağlam ola.

Möhtac olmayım köməyə,
Nə qalxmağa, nə enməyə,
Dərdlərimi dinləməyə,
Yanımda bir doğmam ola,
Təki canım sağlam ola.

Anlamadım o vaxta ki,
Tale vurdu göz çəpəki.
Deyirlər ha, o sonrakı,
Kaş əvvəl o ağlım ola,
Təki canım sağlam ola.

Həqiqətdir, bu danılmaz,
Candan şirin bir can olmaz.
Düşmə, düşsən çarə qılmaz,
Yüz təbib, yüz loğman ola,
Təki canım sağlam ola.

KASIBLIQ QOCALTDI BİZLƏRİ, QARDAŞ

İrəli getməkdən dala gedirik,
Ayağımız yalın, əynimiz nimdaş.
Ruzi üçün mollaya, fala gedirik,
Kasıblıq qocaltdı bizləri, qardaş.

Aylara bölündük, ilə qocaldıq,
Saraldı gözlərdə gilə, qocaldıq.
Düşdük ağızlara, dilə, qocaldıq,
Kasıblıq qocaltdı bizləri, qardaş.

Yumub gözlərini aç, gecə oldu,
Ömrün baharında pir, qoca olduq.
Heç baş açmadıq ki, bu necə oldu?
Kasıblıq qocaltdı bizləri, qardaş.

Hara ayaq basdıq yandı, qurudu,
Boylandıq dənizə döndü qurudu.
Yüz ilin ağacı dondu, qurudu,
Kasıblıq qocaltdı bizləri, qardaş.

Pullu həcilərə Adəmdir, - dedik,
Yol verin, mübarək qədəmdir, - dedik,
Uşağa göstərdik, - dədəndir, - dedik,
Kasıblıq qocaltdı bizləri, qardaş.

Varlının yalanı düppədüz olur,
Əlliyə yüz desə, yüzdə yüz olur.
“Valet”i çıxardır dönür “tuz” olur,
Kasıblıq qocaltdı bizləri, qardaş.

Demirik ki, bütün sular durulsun,
Demirik ki, bizə taxt-tac qurulsun.
Şahid deyir, qoy o dünyam var olsun,
Bir az kövrək, bir az gözlərində yaş,
Kasıblıq qocaltdı şairi, qardaş.

BİR SÜDƏMƏR KÖRPƏ MƏNİ DƏYİŞDİ

Nəvəm Aslana həsr edirəm

Car çəkirəm bilsin bütün el-oba,
Bu nə duyğu, bu nə tələş, nə hissdir?
Ay camaat, baba olmuşam, baba,
Bir südəmər körpə məni dəyişdi.

Dadmamışam, vallah dadın, bilmirəm,
Uzaqdadır, mən heç adın bilmirəm.
Qanad açıb uçub gedim, bilmirəm?!
Bu nə şirin, bu nə şəkər gəlişdi,
Bir südəmər körpə məni dəyişdi.

Xəyalım yanında, kaş olmaq keçir,
Qoxusun doyunca hey almaq keçir.
Könlümdən bir dəli ağlamaq keçir,
Gözümdə yaş xumar-xumar gəzişdi.
Bir südəmər körpə məni dəyişdi.

Dövlətdə də vara dəvə deyirlər,
Övladda da bara nəvə deyirlər,
Deyəndə də sevə-sevə deyirlər,
Rövzeyi-gülşəndi, huri-behişdi,
Bir südəmər körpə məni dəyişdi.

Hər zirvəni çıxıb dağa axtarma,
Baxıb sola, baxıb sağa axtarma.
Zəhmət çəkib gəzmə, qağa, axtarma,
Budur zirvə, ən böyük yüksəlişdi,
Bir südəmər körpə məni dəyişdi.

Fələk tələ qurdu yenə düşmədim,
Tor da çəkdi, balıq tək ilişmədim.
Əlli yaşa çatdım mən dəyişmədim,
Dəyişməyə kimin çatardı həddi?
Bir südəmər körpə məni dəyişdi.

NƏ TEZ AĞARTDIQ BU SİYAH TELLƏRİ

Yaş üstə yaş gəlir, sevınmə, qardaş,
Ömrün qocalanda yoxmuş dəyəri.
Nə ola bir imkan veriləydi, kaş,
Mən qurban verərdim gələn illəri,
Nə tez ağartdıq bu siyah telləri?

Həyat bir imtahan, sınadı getdi,
Körpə uşaq kimi qınadı getdi.
Xəyal quşlarımın qanadı getdi,
Söküldü ömrümün dayaq milləri,
Nə tez ağartdıq bu siyah telləri?

Bizi doğmalardan ayıran illər,
Yumağa döndərib əyirən illər,
Mindirib atına yüyürən illər,
Saldı taxt-tacından neçə şirləri,
Nə tez ağartdıq bu siyah telləri?

Tələsirik, hamı qaçhaqaçdadır,
İnsan boyda sanki bir qarışqadır.
Ölüm də ki, Şahid, gözlə qaşdadır,
Dur bir əlvida de, yellət əlləri,
Nə tez ağartdıq bu siyah telləri?

QALDIM

Biz qoşa zərlərik, dünya nərd imiş,
Üstündə oynadan bir namərd imiş.
Şeş qoşa düşmək lap müşkül dərd imiş,
Bir ömür tamarzı cüt daşa qaldım.

Bu şair ruhumu naza köklədim,
Payıza köklədim, yaza köklədim.
Çevirdim dastana, saza köklədim,
Könülsüz bir quru alqışa qaldım.

Gənclik qocalığı dərk etdi, getdi,
Uşaqlar da bizi tərk etdi getdi.
Hərə öz yuvasın bərkitdi getdi,
Lövbərsiz qayıq tək çaş-başa qaldım.

Ağ göyərçin kimi uçub getdilər,
Ayrı bir ocağa köçüb getdilər,
Öz həyat yolunu seçib getdilər,
Baxıb hey dalınca tamaşa qaldım.

Dost-tanış yığışdı, gülmək istədim,
Ayrılıq notların silmək istədim.
Bir az da dərdimi bölmək istədim,
Sevinci paylaşa-paylaşa qaldım.

Eşqin göylərində sayıq məhəbbət,
Ən gözəl duyğusan, ayıq məhəbbət.
Söyləyin, olurmu soyuq məhəbbət?
Bəs nədən buz kimi baxışa qaldım?

GEDİRİK AH ÇƏKƏ-ÇƏKƏ

Günü günə calayırıq,
Ya bir təhər, ya tələkə.
Ömür bizə əsir düşüb,
Gedirik ah çəkə-çəkə.

Bir nağılıq sonu bəlli,
Ya altmışıq, ya da əlli.
Tut dünyanı ikiəlli,
Bu gün varıq, sabah bəlkə...
Gedirik ah çəkə-çəkə.

Kimi ağlın salıb gedir,
Kimi ömrün çalıb gedir,
Yaltaqlıq baş alıb gedir,
Bu rəzillik, bu bir ləkə,
Gedirik ah çəkə-çəkə.

Qazımız var, qalanmırıq,
Bir təhər də dolanmırıq.
Bir yağ nədi alanmırıq,
Günəbaxan, ya da məkə,
Gedirik ah çəkə-çəkə.

Adam gördüm, izi maska,
Sir-sifəti, üzü maska.
Yalanı min, düzü maska,
Qulluq edir yüz məsləkə,
Gedirik ah çəkə-çəkə.

Nə xətir var, nə izzəti,
Nə dad qalıb, nə ləzzəti,
Sözüm bütöv, sözüm qəti,
Sal başıma bir daş yekə,
Gedirik ah çəkə-çəkə.

Bu dünyanı tut belə get,
Sola çəkir, sən sola get.
Şahid, barış, gəl yola get,
Nə hay-küy sal, nə mərəkə,
Gedirik ah çəkə-çəkə.

İXTİYARSIZ GÖZLƏRİMDƏN YAŞ GƏLİR

Uşaqlıq illərim düşür yadıma,
Nədən bu duyğular mənə xoş gəlir.
Xatirələr qoşun çəkir üstümə,
İndən belə yaşamaq da boş gəlir,
İxtiyarsız gözlərimdən yaş gəlir.

Sehirmi var, illər, səndə, bilmirəm,
Bəs nədən qəlbimə bir təlaş gəlir?
Nə vaxt ki, mən səni xatırlayıram,
İçimnən yanğılı bir atəş gəlir,
İxtiyarsız gözlərimdən yaş gəlir.

Nədir o illərin sirri, hikməti,
Bəlkə atamızın halal zəhməti,
Bəlkə anamızın o məhəbbəti?
Bəlkələr dolaşır, lap çaşbaş gəlir,
İxtiyarsız gözlərimdən yaş gəlir.

Yadımdadır, şirin-şirin gülərdik,
Nə tapdıqsa, onu həmən bölərdik.
Özümüzü elə xoşbəxt bilərdik,
Yadıma həm bacım, həm qardaş gəlir,
İxtiyarsız gözlərimdən yaş gəlir.

İnsan ömrü, çiçək ömrü çox qısa,
Göz açırsan yaşın üstə yaş gəlir.
Gedəndə də heç nə aparmır gedir,
Gələndə də insan əliboş gəlir,
İxtiyarsız gözlərimdən yaş gəlir.

O illər illərin ən müqəddəsi,
Şahidəm, ömrümə indi qış gəlir.
Hər tərəf qayadır, zindandır, daşdır,
Arzular, ümidlər daşa tuş gəlir,
İxtiyarsız gözlərimdən yaş gəlir.

SATANLAR ÇOX, ALAN YOXDU BU DİYARDA

Nəhs gətirir hər işimiz,
Dəyişibdi gərdişimiz.
Qarğış olub vərdişimiz,

Hər kəlməmiz acı oxdu bu diyarda,
Satanlar çox, alan yoxdu bu diyarda.

Sazımızı bəm köklədik,
Sözümüzə qəm köklədik.
Gözümüzə nəm köklədik,

Necə deyim, talan yoxdu bu diyarda,
Satanlar çox, alan yoxdu bu diyarda.

Su gəlməmiş çırmanırıq,
Düz sözü də səf qanırıq.
Addımbaşı aldanırıq,

Deyirlər ki, yalan yoxdu bu diyarda,
Satanlar çox alan yoxdu bu diyarda.

Qalamağa kol da yoxdu,
Bir işiqlı yol da yoxdu.
Allah haqqı, pul da yoxdu,

Haqq yolunda dalan çoxdu bu diyarda,
Satanlar çox, alan yoxdu bu diyarda.

Evimizə pay tapmırıq,
Hansın desəm say, tapmırıq.
Çörək, düyü, çay tapmırıq,

Bizə çarə qılan yoxdu bu diyarda,
Satanlar çox, alan yoxdu bu diyarda.

Bu dünya bir qəm karvanı,
Başsız qalıb, yox sarvanı.
Şahid, gətir çal havanı,

Köçüb hamı, qalan yoxdu bu dünyada,
Satanlar çox, alan yoxdu bu diyarda.

XƏLƏT ÖLDÜRDÜ MƏNİ

Göz açandan bəri, ta bu günəcən,
Qayğı girdabında bir kəm-kəsirəm.
Necə görmüş idin o illər öncə,
Mən elə həmənki Məmmədnəsirəm,
Səfalət öldürdü məni.

İllərdir ömrümə hakim kəsilən,
Həqiqət bildiyim düz də yalanmış.
Üz də maskalıdır, göz də maskalı,
Təpədən dırnağa hey maskalanmış,
Bu halət öldürdü məni.

Əlli il, altmış il, lap yüzü keçə,
İnanmaram kimsə duya, anlaya.
Bu qulaqdan vurub alırlar heçə,
Ziyalılar indi qaçır mollaya,
Cəhalət öldürdü məni.

Elə zamanada yaşıyırıq biz,
Yüz doğrunu kəsib yıxır bir yalan.
Yaman parlaq olub gələcəyimiz,
Beş-on qəpik pula, bu tapdalanan
Ədalət öldürdü məni.

Yol üstündə kimsə məni səslədi,
Boylandım, yaşlı bir qadınmış baxan.
Əl uzatdı anam yardım istədi,
Cibimdən alov tək alnıma qalxan,
Xəcalət öldürür məni.

Bir az da xələtdən söhbət açıram,
Bizim toyların da qadasın alım.
Xələt eşidəndə elə qaçıram,
O qədər xəlvəti qaçmışam, Allah,
Bu xələt öldürdü məni.

BİR DƏYƏRSİZ ÖLÜM MƏNİ QORXUDUR

Tale mənim qismətimə, alnıma,
Yüz şərəfli ölüm yaza, qorxmuram.
Odlanıram, tələş düşür canıma,
Bir dəyərsiz ölüm məni qorxudur.

Qəm toxumu əkdim bir-bir başımda,
Baş nədir ki, ağardı bu qaşım da,
Soltanlığın bu bəxtiyar yaşında,
Bəyazlamış telim məni qorxudur,
Bir dəyərsiz ölüm məni qorxudur.

Qapıdan ər, pəncərədən yar gedir,
Nalə çəkir yer, göy, ahu-zar gedir.
Namus gedir, qeyrət gedir, ar gedir,
İçim yanır, çölüm məni qorxudur,
Bir dəyərsiz ölüm məni qorxudur.

Haqsızlığa barışmıram, dözmürəm,
Həqiqəti tapdalıyıb üzmürəm.
Yaltaqlığı peşə edib gəzmirəm,
Sərt danışan dilim məni qorxudur,
Bir dəyərsiz ölüm məni qorxudur.

Minlər getdi bir virusun badına,
Baxmadı ki, cavan, qoca, qadına.
Ağ xalatlar çatsalar da dadına,
Qonşumuz o Səlim məni qorxudur,
Bir dəyərsiz ölüm məni qorxudur.

Nə qonaqlı, nə qaralı evim yox,
Məlikmməmməd nağılım yox, divim yox.
İstilik yox,doğmalıq yox, sevinc yox,
Soyuqlaşan elim məni qorxudur,
Bir dəyərsiz ölüm məni qorxudur.

Şairliyin dağ yükü var belimdə,
Tutanmıram, söz də qaçır dilimdə.
Hey qələmi fırladıram əlimdə,
Şeir yazan əlim məni qorxudur,
Bir dəyərsiz ölüm məni qorxudur.

İNDİ OLDUM DAHA "ƏMƏKDAR BABA"

Saleh nəvəmə ithaf edirəm

Qayğılarım elə başımı qatdı,
Ayıldım o vaxt ki, olmuşam baba.
Bu gün bir nəvəmin də sayı artdı,
İndi oldum daha "əməkdar baba".

Bir Aslanım var, bir də Saleh oldu,
Baxan baxdı, elə hey valeh oldu,
Bəxtəvər babadan da saleh oldu.
Biri şair, biri bəxti yar baba,
İndi oldum daha "əməkdar baba".

Bu zirvəyə çata bilmir hər adam,
Şükür, bizə nəsib etdi yaradan.
Daha vaxtımızdır nəvə oynadan.
Sən ol şaxta, mən də olum qar baba,
İndi oldum daha "əməkdar baba".

ATIRIQ GÜLLƏNİ QƏPİYƏ İNDİ

Dərddən şair olduq, a doğma ellər,
Şeir həsrət çəkir, çəpiyə indi.
Zəmanə bəd gəlib bəxtimiz üstə,
Atırıq gülləni qəpiyə indi.

Deməyə o qədər dərdimiz çoxdur,
Qəlbimiz nişangah, dartılan oxdur.
Əl atıb tutmağa ümid də yoxdur,
Samandan keçmişik köpüyə indi,
Atırıq gülləni qəpiyə indi.

Hələ qışdan çıxıb yaya getməli,
Haraya getməli, küyə getməli.
"Jiquli"lər olub toya getməli,
Heç minə bilmirik "zapı"ya indi,
Atırıq gülləni qəpiyə indi.

Əlçatmaz olubdur o qazlı sular,
Satılır Kür sular, Arazlı sular.
Daha mən demirəm o nazlı sular,
Pulumuz çatmayır "yupi"yə indi,
Atırıq gülləni qəpiyə indi.

Əsrimizin məşhur neft bağlısı var,
Azəri, Günəşli, Çıraqlısı var.
Hələ bunların da ən yağlısı var,
İngilislər köçüb "BİPİ"yə indi,
Atırıq gülləni qəpiyə indi.

O qədər qaynayıb daşma, a Şahid,
Çox da gəl həddini aşma, a Şahid.
Dilini kəsərlər, coşma, a Şahid,
Qurban gedəcəksən təpiyə indi,
Atırıq gülləni qəpiyə indi.

ÇƏK BAŞINA YORĞANINI, YATGİNƏN

Altı qızıl, üstü qızıl torpağım,
Bərəkətdir dörd tərəf, solum, sağım.
Göz oxşayan uca dağlar dayağım,
Çox danışma, ağzını kapatginən,
Çək başına yorğanını yatginən.

Pəncərədən yola baxma, amandır,
Sağa baxma, sola baxma, amandır.
Uzaqda o kola baxma, amandır,
Baxanda da bir "sms" atginən,
Çək başına yorğanını yatginən.

İcazəsiz yerişməkdə yasaqdır,
Paltar alıb dəyişmək də yasaqdır,
Çaşarsan ha, görüşməkdə yasaqdır,
Uzaqda dur, kəlləvi tərpətginən,
Çək başına yorğanını yatginən.

"Pastavoy"lar qanımı qaraltdılar,
Çıxdım yola, saxlamadım, qatdılar,
Birin keçdim, o birində tutdular,
İndi sən get pencəyivi satginən,
Çək başına yorğanını yatginən.

Bu günkü gün dünənkindən nəhs gəlir,
Sözlərimiz ağzımızdan tərs gəlir.
Aclıqdan da mədəmizdən səs gəlir.
Mədəni tut əlinlə daraltginən,
Çək başına yorğanını yatginən.

Deyirlər ki, çölə çıxma evdə qal,
Harda desək orda dayan, orda qal.
Zalım oğlu, demirlər ki, gorda qal,
Şükür sağsan, papağını fırlatginən,
Çək başına yorğanını yatginən.

Bu körpələr nə bilirlər "yox" nədir,
Anlamırlar azdı, yoxdu, çox nədir.
Necə deyim qarnı aca "tox" nədir?
Uşaqlara nağıl de, aldatginən,
Çək başına yorğanını yatginən.

Əsir düşdüm evimdə, otağımda,
At oynadır arvad da qabağımda.
Göz yaşlarım qurumur yanağımda,
Yalvarginən, burnunu sallatginən,
Çək başına yorğanını yatginən.

ATALI İLLƏRƏ APARIN MƏNİ

Vallah, istəmirəm bu dünya malın,
Nə bir dəbdəbəsin, nə şirin balın.
Sürünnəm illərlə mən ayaqyalın,
Alın öz-özümdən qoparın məni,
Atalı illərə aparın məni.

Yanıram, heç hara yetməyir əlim,
Çarə ölümdürsə, öldürün gəlin.
Onsuz keçən ayın, hər keçən ilin,
Bu kor ağrısından qurtarın məni,
Atalı illərə aparın məni.

Neynirəm fil ömrü, şələ ömrümü,
Bu fəryad ömrümü, nalə ömrümü.
Versəm yaşamaz heç gülə ömrümü,
Kəsin parə-parə, tən yarın məni,
Atalı illərə aparın məni.

Atasız bir ömür döyməyə dəyməz
Meyvəsiz budağı əyməyə dəyməz
Şahid, soltanlığı öyməyə dəyməz
Odur rahatlığı, ruhun düzəni
Atalı illərə, aparın məni.

A T A

Ruhun uçdu, ülviləşdi,
Əl çatmaz bir dağsan, ata.
Əcəl vaxtsız aparsa da,
Qəlbimizdə sağsan, ata.

N.Azəri

Bu bənd məni çox duyğulandırdı.
Ardını tamamlamaq istədim...

Sən zirvəsən qar olmayan,
Sən tərlansan sar olmayan.
Əbədisən saralmayan,
Bar-bəhrəli bağsan, ata.

Çox qarışdı ara, getdi,
Abır, həya, para getdi.
Çoxu üzü qara getdi,
Sən bir üzü ağsan, ata.

Günlər keçsə, aylar keçsə,
Neçə-neçə illər keçsə,
Belə ildən minlər keçsə,
Unudulmaz çağsan, ata.

Bir səhrayam çaya həsrət,
Damcı-damcı suya həsrət,
Sən də bulud, yaya həsrət,
Yağ üstümə yağsan, ata.

Sən çıraqsan, iz nədir ki,
Əyri nədir, düz nədir ki?
Şahid deyir yüz nədir ki,
Yaşa iki doxsan, ata.

TƏLƏSMƏ, AY ÖMRÜM, YAŞA TƏLƏSMƏ

De, doğum günündə bu tələş nədir?
Hələ payızı var, qışa tələsmə.
Neçə arzular var xəyallarımda,
Tələsmə, ay ömrüm, yaşa tələsmə.

Getdiyin yolların tərs, düzü vardır,
Altmışı, yetmişi, lap yüzü vardır.
Fələyin amansız sərt üzü vardır,
Qorxmursanmı coşub-daşa, tələsmə.
Tələsmə, ay ömrüm, yaşa tələsmə.

Bu şair ömrünə, bu söz ömrünə,
Bir az da səbir qat, gəl döz ömrünə.
Gözəllər eyliyər qaş-göz ömrünə,
Dönərsən dastana qoşa, tələsmə,
Tələsmə, ay ömrüm, yaşa tələsmə.

Rəbbim yaradanda "Ol", dedi qısa,
"Öl" desə, bu dünya dönər bir yasa.
Hər şey nizamlıdır, izni olmasa,
Çöl qanqal bitirməz, boşa tələsmə,
Tələsmə, ay ömrüm, yaşa tələsmə.

Hər yıxan pəhlivan bir bilək deyil,
Nə şeytan, nə iblis, nə fələk deyil.
Hər rəna gözəllər bir mələk deyil,
Aldanma hər gözə, qaşa, tələsmə,
Tələsmə, ay ömrüm, yaşa tələsmə.

Dünya körpüsündən kimlər bax, keçib,
Süleymanlar keçib, tacı-taxt keçib.
Bir də ayılarsan elə vaxt keçib,
Dönübsən torpağa, daşa, tələsmə,
Tələsmə, ay ömrüm, yaşa, tələsmə.

AY ÖMRÜM

Saldılar boynuna əcəl kəndirin,
Kim qovdu ki, yel tək ötdün, ay ömrüm!
Zaman da mizrabın elə çaldı ki,
Heç bilmədin qışdı, yazdı, yay, ömrüm!

Doğulandan sənə ümid bağladım,
Dizinə baş qoydum, sən sığalladın.
Ən gözəl çağımda elə nalladın,
Dilim söz tutmadı deyəm, vay, ömrüm!

Kimsə taleyimdən razı görmədim,
Şaxta, boran gördüm, yazı görmədim.
O sərt baxışında nazı görmədim,
Ləçəyi don vurmuş, gülə tay ömrüm!

Varaqla gəl məni, gör bir nələr var,
İçi qəmlə dolu xəzinələr var.
O qədər ağrılı xatirələr var,
Mən dəniz, o dalğa, indi say, ömrüm!

Harda kədər varsa, o dartar məni,
Dünya əzabından gəl qurtar məni.
Anam, o dünyaya çək apar məni,
Yellət beşiyimi, de lay-lay, ömrüm!

GÖRDÜM

Hər kəsin getdiyi bu düz yolları,
Mən getdim, qarşımda tərs dalan gördüm.
Düzlər əyrilərlə qoşalaşdılar,
Həqiqət içində ağ yalan gördüm.

Ömrümü talayan dərddir, qübardı,
Bəxt quşu deyilsə, kim günahkardı?
Camaat ovundan kəklik apardı,
Bu kor qismətimdə sağsağan gördüm.

Yarın bağçasına xəlvətcə girdim,
Ən gözəl güllərdən tər çiçək dərdim.
Ömrümdə bir dəfə hədiyyə verdim,
O da buketində saralan gördüm.

Şairəm şeirimlə haqqın səsiyəm,
Ən uca dağların duman sisiyəm.
İstədim ki deyəm, lap zirvəsiyəm,
Boylandım, böyrümdə Savalan gördüm.

Nahaq şər, böhtandan yaman sivrildim,
Gündə neçə dəfə ölüb dirildim.
Bir qızıl qələmə layiq görüldüm,
Onun da altında kor ilan gördüm.

ANA

Kaş ki, bu ayrılıq heç olmayaydı,
Bükülmüş qəddimi sən əydin, ana.
Döşənib xalı tək ayaqlarına,
Hər zaman üstümdə gəzəydin, ana.

Baxıb məzarına fikirləşirəm,
Mənə doğmadımı, yadmı bu torpaq?
Özüm öz-özümə əsəbləşirəm,
Nə qədər analar uddu bu torpaq.

Deyirlər vətəndir, torpaqdır ana,
Analar vətənlə, torpaqla təndir.
Vətənim də vardı, torpağım da var,
Bəs bu ürəyimdə ağrı nədəndir?

Ölənlə ölmürlər, deyib atalar,
Sənsiz ölmədim ki, yaşadım, ana.
Ömrümün ən əziz, xoşbəxt günlərin,
Özünlə məzara daşıdın, ana.

Yaş üstə yaş gəlsə, illər keçsə də,
Heç vaxt yoxluğunla barışmaram mən.
Küləklər üstümə qoşun çəksə də,
Səngimiş ocağam, alışmaram mən.

Qoruyun ananı, ana bir mələk,
Özüm də Şahidəm, sonra gec olur.
Çin olmuş arzudur gerçək bir dilək,
Hər yaşda anaya ehtiyac olur.

NEYNƏSİN

Arzularım pöhrələndi açmağa,
Ətirləndi sağa, sola saçmağa.
İstədi ki, qanad açsın uçmağa,
Ha çalışdı, uçammadı, neynəsin?

Baxdı yarın giley dolu gözünə,
Kədər qonmuş dodağına, üzünə.
Söz vermişdi axı bir vaxt özünə,
Öz sözünü tutammadı, neynəsin?

Bu qismətdi, bu taledi, bu yazı,
Tale ondan, o taledən narazı.
Töksələr də lap üstünə Arazı,
Alovundan qaçammadı, neynəsin?

Yaradanın sirr hikməti bilinməz,
Qəfil vuran yaraları silinməz.
Verəndə də verdi gözə görünməz,
Bəxt açarı açammadı, neynəsin?

NƏ SƏN GÜNAHKARSAN, NƏ MƏN GÜNAHKAR

Bir ana bətnində gəldik dünyaya,
Çevrildik illərə, döndük bir aya.
Birimiz daş olduq, birimiz qaya,
Nə sən günahkarsan, nə mən günahkar.

Ata bir, ana bir doğma övladıq,
Bir canıq, bir qanıq biz, bir soyadıq.
Bu qədər yaxınkən, bu qədər yadıq,
Nə sən günahkarsan, nə mən günahkar.

Sonası ovlanmış bir qəlbi qırıq,
Çovğunuq, şaxtayıq, çölük, bayırıq,
Gələndə yolları haçalıyırıq,
Nə sən günahkarsan, nə mən günahkar.

Bu bəxtsiz ağacın tale bağında,
Qurumuş yarpağıq bir budağında.
Durmuşuq küləyin burulğanında,
Nə sən günahkarsan, nə mən günahkar.

Çiskinli, dumanlı dağlar aşırıq,
Düz gedən yolları bəzən çaşırıq.
Ömür qısaldıqca uzaqlaşırıq,
Nə sən günahkarsan, nə mən günahkar.

Yığıla dostlarım, bütün el obam,
Qızınmaz ocağım, isinməz sobam.
Var-dövlət içində üzən kasıbam,
Nə sən günahkarsan, nə mən günahkar.

Hələ biz qalxırıq, enməyimiz var,
Hələ biz yanırıq, sönməyimiz var.
O qara torpağa dönməyimiz var,
Nə sən günahkarsan, nə mən günahkar.

Bir doğma yuvadan ayrılmış quşuq,
Dünya sərvətinə daim sərxoşuq.
Bu əlli yaşadək ayılmamışıq,
Ya ağıldan kəmik, ya qulaqdan kar,
Nə sən günahkarsan, nə mən günahkar.

DOĞMASI DA GETDİ, YADI DA GETDİ

Zaman caynağına saldı apardı,
Ömrün payızı da, yazı da getdi.
Əl uzatdım, dedim bir sağollaşam,
Doğması da getdi, yadı da getdi.

Ayrılıq anları yetişdi, gülüm,
Qəhər boğür məni, söz tutmur dilim.
Ayrılmaq çətindir, yaşamaq zülüm,
Sevgi atəşimin odu da getdi.

Bircə aman-zaman dostum var idi,
Maşını, şirkəti, bağı var idi.
Gözləri doymurdu, tamahkar idi,
Sildim yaddaşımdan adı da getdi.

Hər insanın arzusu var, kamı var,
Hər yuvanın çırağı var, şamı var.
Hər süfrənin bəzəyi var, tamı var,
Ağzımın ləzzəti, dadı da getdi.

ÖZÜM ÜÇÜN YAŞAMADIM BU HƏYATI

Doğuldum arzularımla,
Təmiz ad, namus, arımla.
Düz əhdim, düz ilqarımla,
Özüm üçün yaşamadım bu həyatı.

Ümüdlərim getdi bada,
Tərk etdi məni ana da.
Etibarsız zəmanada,
Özüm üçün yaşamadım bu həyatı.

Quyu qazdım suyu sərin,
Bir az enni, bir az dərin.
Dağıtdılar çeşmələrin,
Özüm üçün yaşamadım bu həyatı.

Qucaq açdım dosta, yada,
İndi heç kim salmır yada.
Tənha quşam bir yuvada,
Özüm üçün yaşamadım bu həyatı.

Nəyim vardı getdi yelə,
Vaxtsız ağ dən düşdü telə.
Bir lələyəm, bir də şələ,
Özüm üçün yaşamadım bu həyatı.

Ömür gəlib çatdı sona,
Qalmışam lap yana-yana.
Əzrayıl dartır o yana,
Özüm üçün yaşamadım bu həyatı.

MƏN QUŞ OLMAQ İSTƏYİRƏM

Nə bir kasıb, nə bir ağa,
Nə bir uşaq, nə bir çağa.
Bu dünyanı yaşamağa,
Mən quş olmaq istəyirəm.

Gen dünyadan bezməməkçün,
Haqsızlığa dözməməkçün,
Qürurumu əzməməkçün,
Mən quş olmaq istəyirəm.

Nə çox iri, nə də uca,
Nə çox cavan, nə də qoca,
Ovuc içi bapbalaca,
Mən quş olmaq istəyirəm.

Yaxın uçum, ya uzağa,
Ya arana, ya da dağa.
Allahıma sığınmağa,
Mən quş olmaq istəyirəm.

İstəmirəm altmış ili...
Bu dünyanın ağrıları.
Gözlərində yatmış ili,
Bir kimsənin naləsindən,
Günahlara batmış ili.

İstəmirəm altmış ili,
Yaltaqlığı peşə bilib,
Məqsədinə çatmış ili,
Bir alçağın qarşısında,
Əqidəsin satmış ili,
Mən quş olmaq istəyirəm.

Yetmişi mən istəmirəm,
Lap kökündən sapsaralmış,
Bitmişi mən istəmirəm.
Yaddan çıxan, unudulmuş,

İtmişi mən istəmirəm.
Bir çəpiklə diyirlənən,
Getmişi mən istəmirəm.
Mən quş olmaq istəyirəm.

Qınamayın məni, dostlar,
Nə sevgi var, nə də hisslər.
Yerdə çoxdur nadürüstlər,
Mən quş olmaq istəyirəm.

Zəhləm gedir cayanlardan,
Qanı qanla yuyanlardan.
Min bir hiylə quranlardan,
Mən quş olmaq istəyirəm.

Nə gecəm var, nə gündüzüm,
Səbirsizəm, yoxdur dözüm.
Səmalara baxır gözüm,
Mən quş olmaq istəyirəm.

Göylərdə yox hiylə, kələk,
Mələklərdir yalnız bir tək.
O da mələk, bu da mələk,
Mən quş olmaq istəyirəm.

Qərar verdim mən nəhayət,
Nə bu həyat, nə o həyat.
Edin məndən lap şikayət,
Mən quş olmaq istəyirəm.

Ömrü olsa da çox qısa,
Ya qaranquş, ya yarasa.
Sən istəsən get harasa,
Mən quş olmaq istəyirəm.

DAŞ ÜSTÜNDƏ İKİ KƏLMƏ YAZIYIQ

Zaman-zaman var, dövlətin eşqinə,
Bu dünyanı dağıtmağa razıyıq.
Biz kimik ki, düşünsənə, ey insan,
Daş üstündə iki kəlmə yazıyıq.

Ömrümüzə duman düşür, çən düşür,
Qara telə narın-narın dən düşür.
Gözəllər də perik düşür, gen düşür,
Qəfil gələn bir küləyin tozuyuq,
Daş üstündə iki kəlmə yazıyıq.

Zülm edirlər, hər işimiz tərs keçir,
Bir axmaq yüz ağıllıya dərs keçir.
Qan yerinə damarlardan hirs keçir,
Bəxtimizin kökdən düşmüş sazıyıq
Daş üstündə iki kəlmə yazıyıq.

Aç xurcunu, bu dünyanı sal, götür,
Özün ilə o dünyaya al götür.
Bu da sənə bir vağzalı, çal götür,
Pul ağanın hüzurunda tazıyıq,
Daş üstündə iki kəlmə yazıyıq.

Biri pisdir, biri yaxşı, unudaq,
Öz meyvəsin saxlamır ki, hər budaq.
Gəl bir az da insanlığa qayıdaq,
Axı bizlər, yaradanın nazıyıq,
Daş üstündə iki kəlmə yazıyıq.

MƏNƏ DƏNİZ VERİN

Mənə dəniz verin, sakit bir dəniz,
Qoynunda uzanıb dincələ bilim.
Mənə dəniz verin, elə bir dəniz,
Üstü təmiz olsun, altı da təmiz.

Köpüklü dalğalar yorğanım olsun,
Gah örtsün başımı, gah çəksin dizə.
Bütün qəlbimizlə elan eyləyək,
Sevgi etirafı, bir-birimizə,

Uyuyum qoynunda bir körpə kimi,
Örtsün gözlərimi şirin bir yuxu.
Mənə nağıl desin, uzun bir nağıl,
Razıyam, qoy keçsin ömrümün çoxu.

Mənə dəniz verin, sevdalı dəniz,
Çırpınıb daşlara yaralanmasın.
Bu qədər doğmalar, dostlar içində,
Köməksiz qalmasın, yalqız qalmasın.

Qaytarın müqəddəs xatirələri,
Gördüyüm qorxulu kabus kimi yox.
Mənə dəniz verin azad, firavan,
Ayağı qandallı, məhbus kimi yox.

Biz ona dərd olaq, o bizə dərman,
Hər zaman söyləyək öz dərdimizi.
Ürəkdən ürəyə bir körpü olsun,
Sizə yalvarıram, sevək dənizi.

Mənə dəniz verin, sakit bir dəniz,
Qoynunda uzanıb dincələ bilim.
Mənə dəniz verin, elə bir dəniz,
Üstü təmiz olsun, altı da təmiz.

DEYİMMİ XOŞ GƏLDİN, GÖZƏL NOVRUZUM

Öldüm xəcalətdən, aman əlindən,
Deyirsən vəsf eylə, nəyindən yazım?
Babat yaşayırdım, sən gələn gündən
Bitdi məhəbbətim, tükəndi nazım,
Deyimmi xoş gəldin, gözəl Novruzum?

Hanı uşaqların hay-küylü səsi,
Ulu babaların bal ənənəsi?
Görmürəm heç kəsdə bayram həvəsi,
Axı bu dərdlərə mən necə dözüm,
Deyimmi xoş gəldin, gözəl Novruzum?

Palçıq gəlir indi su gələn arxa,
Qiymətlər də qalxdı lap kəllə çarxa.
Girirəm marketə mən qorxa-qorxa,
Yaman kasıblaşdım, kəsildi ruzim,
Deyimmi xoş gəldin, gözəl Novruzum?

Qazımı kəsdilər borcun əlindən,
Suyu, işığı da ayın birindən.
Növbə dilimindi, kəsin dilimdən,
Tonqal da qaladım, ərimir buzum.
Deyimmi xoş gəldin, gözəl Novruzum?

Siyahı veriblər evdən bir yığın,
Düyü də nisyədir, nisyədir yağım.
Balığı soruşdum sancdı dalağım,
Baxdım hey dalınca fındığın, qozun,
Deyimmi xoş gəldin, gözəl Novruzum?

Şahidəm, özümü aciz sanmadım,
Başımı dik tutdum, mən utanmadım.
Min şükür ki, sizi nisyə almadım,
Süfrədə çörəyim, yanında duzum,
Deyimmi xoş gəldin, gözəl Novruzum?

A DAĞLAR

Görüşə gəlirəm soyuq qış günü,
Qəlbimdə bahardır, yazdır, a dağlar.
Gəl bir çiskin eylə, toz-duman eylə,
Məni yollarında azdır, a dağlar.

Tanrıya uzanan əldi bu yollar,
İncidir, gövhərdir, ləldi bu yollar.
Bağrımın başını dəldi bu yollar,
Ömrümü alalar, azdır, a dağlar.

Hər qayası tarix, bir qan yaddaşı,
Doğmadır, əzizdir, qarış-qarışı.
Yollar xəstəsiyəm, hər addım başı,
İşvədir, qəmzədir, nazdır, a dağlar.

O tayda atamla bağlı tellər var,
Bu tayda analı xatirələr var.
Qəlbimi sızladan nələr, nələr var?
Birdimi, beşdimi, yüzdür, a dağlar.

Kimlər yatır səndə, heç inanmadım,
Dərs oldu, görk oldu mən oyanmadım.
Bu əlli yaşımda indi anladım,
"Bu dünya bir çürük qozdur, a dağlar".

ƏYİLDİ QAMƏTİM, BÜKÜLDÜ GETDİ

İllər köhlən atım, yüküm dərd olub,
Əyildi qamətim, büküldü getdi.
Körpə arzularım çiçək açmamış,
Əsdi xəzan yeli töküldü getdi.

Hücum çəkir nakam xatirələrim,
Hanı o qayğısız gənclik illərim?
Kim verdi qərarı, ömür millərim,
Bir göz qırpımında söküldü getdi.

Gəzdim bu elləri mən diyar-diyar,
Görmədim çoxunda güvən, etibar.
Bir az kasıblaşdım, süfrəm oldu dar,
Can deyən dostlarım əkildi getdi.

Bu dünyanı vurdum başa tələkə,
O dünya üzümə güləcək bəlkə.
Nigaran gözlərim yol çəkə-çəkə,
Dağlara, daşlara dikildi getdi,
Əyildi qamətim, büküldü getdi.

ƏLLİ YAŞ NƏDİR Kİ, DEYƏN DOSTLARIMA

Hara tələsirsiz deyin, ay illər,
Gözünü qırpırsan, yaşın bəllidir.
Ömür sayğacımız düzgün işləmir,
Dünən on beş idi, bu gün əllidir.

Don vurub ruhumu, yağıbdır qarım,
Əlvida, işıqlı hamar yollarım.
Əlli yaş nədir ki, deyən dostlarım,
Ömrün payızıdır, yolu çənlidir.

Hayıf o illərdən, o illər ayrı,
İstilik, doğmalıq, könüllər ayrı.
O toylu, büsatlı, o ellər ayrı,
İnsanlar dəyişib indi fərqlidir.

Əcəl də eşq ilə alışıb, yanır,
Nə ahıl, nə cavan, nə uşaq qanır.
Qırxa çatan özün ağsaqqal sanır,
Kim çatsa yetmişə, o hünərlidir.

VƏZİFƏ

Vəzifə bir meydir toxunsa dilə,
Qarışqanı belə döndərər filə.
Mübarək əllin də bir çəkər belə,
Sabunlayar səni, yağlayar səni.

Üzərsən göylərin yeddi qatında,
Oynaq hava çalar qəm bayatın da.
Şahə də qalxarsan köhlən atında,
Şirin röyalara bağlayar səni.

Göydə şimşək olub qəfil çaxsan da,
Dönüb bir yağışa, narın yağsan da,
Qovuşub çaylara sakit axsan da,
Sonda şəlalədə dağlayar səni.

Şahid, sonu dərddir bu məhəbbətin,
Dağ çəkər qəlbinə ayrılıq çətin.
Ötən xatirələr əyər qamətin,
Anan layla deyər, ağlayar səni,
Sonda bax beləcə dağlayar səni.

QADAN ALIM

Çıxart köynəyindən sədəfli sazı,
Elə çal ruhumda qal, qadan alım.
Ömrüm bir xoş günə, ana tamarzı,
Çaldıqca canımı al, qadan alım.

Sazın sərkərdəsi, öz əsgəri var,
Dədə Süleymanı, Ələsgəri var.
Aşıq Alı kimi cəngavəri var,
Şirindi, şəkərdi, bal, qadan alım.

Haraya apardı bu çalğı məni?
Ruhum gəzdi bir bir çölü, çəməni.
Qoxladım nərgizi, tər yasəməni,
Donmuşam, qarşında lal, qadan alım.

Anam küsdü bizdən, qalmadı getdi,
Həyatından bir kam almadı getdi.
Şirin laylamı da çalmadı getdi,
Bir Ana laylası çal, qadan alım.

Şahidəm, zamanım qəfil dayansın,
Nə gözlər ağlasın, nə ürək yansın.
Elə vur mizrabı ruhum oyansın,
Cismimi məzara sal, qadan alım,
Bir Ana laylası çal, qadan alım.

O DA MAYOR, BU DA MAYOR

Bacı oğullarıma həsr edirəm

Bir pətəkdir, balı xalis,
Nitqi rəvan, dili səlis.
Biri hərbi, biri polis,
O da mayor, bu da mayor.

Harda olsa orda başdı,
Həm sülhdür, həm də barışdı.
Hər ikisi qan qardaşdı,
O da mayor, bu da mayor.

Biri zirvə, biri dağdı,
Fəxarətdi, ucalıqdı.
Bir ruhda iki dayaqdı
O da mayor, bu da mayor.

Sədaqətdə birincidi,
O gövhərdi, bu incidi.
Xalqımızın sevincidi,
O da mayor, bu da mayor.

Bir dövlətdə iki candı,
Biri ürək, biri qandı.
Müzəffərdi, qəhrəmandı,
O da mayor, bu da mayor.

Bir budaqda iki yarpaq,
Biri vətən, biri torpaq.
Fikirləşək, gəlin tapaq,
Hər ikisi keşikçidi,
O da mayor, bu da mayor.

İNDİ VİRUS GƏLİR BAZAR GÜNLƏRİ

zarafatyana

Həyat bir filmdir, həyat kinodur,
Göz açırsan üçü, beşi, onudur.
Bu gün şənbə günü, həftə sonudur,
Bağla qapıları, pəncərələri,
İndi virus gəlir bazar günləri.

Yayıldı aləmə səsi, sorağı,
Allah kəssin görüm belə marağı.
Yatanlar qoy yatsın varsa oyağı,
Gedib ağah etsin bilməyənləri,
İndi virus gəlir bazar günləri.

Bu millətin taleh yükü ağırdır,
Dörd tərəfim kasıb-kusub, fağırdır.
Bir ana gördüm, ya rəbb, ağlayırdı,
Allah da götürməz bu nalələri,
İndi virus gəlir bazar günləri.

Nə ilki bəllidir, nə sonu bəlli,
Tutdu yaxamızdan o ikiəlli.
Şeytandır, iblisdir, qaniçən zəli,
Qırıldı bağrımın simi, telləri,
İndi virus gəlir, bazar günləri

Fələyin kələyin çözmək çətindir,
And olsun allaha, dözmək çətindir.
Bu çirkab içində üzmək çətindir,
Hələ çox olacaq sürpirizləri,
İndi virus gəlir, bazar günləri.

Hər bazar evlərə qonaq gələrdi,
Dostlar eyləməzdi soraq, gələrdi.
Evə ruzi gələr, çıraq gələrdi,
A Şahid, xatırla ötən illəri,
İndi virus gəlir bazar günləri.

KİTABA YAZILAN RƏYLƏR

Şahid Astaralı haqqında düşüncələrim

Çağdaş Azərbaycan ədəbiyyatının istedadlı nümayəndələrindən biri də bölgəmizdə yaşayıb yaradan şair Şahid Astaralıdır.

Bir neçə ildir ki, Şahid Astaralı yaradıcılığını izləyirəm. Demək olar ki, bütün mövzularda şeirlər yazır. Yazdığı şeirlər xüsusi diqqət cəlb edir. Bu şeirlərdə onun doğma torpağa, ana vətənimizə olan bağlılığı, məhəbbəti çox qabarıq şəkildə özünü göstərməkdədir.

İndi şairin elə dövrüdür ki, çox məhsuldar işləyir, yaradır. Gözəl şeirlərin müəllifidir.

Bu gün ona nə arzulayardım. Arzum budur ki, uğurların davam etdirsin, gələcəkdə böyük nailiyyətlər qazansın. Ona uğurlar, gələcək yaradıcılığında bir daha böyük nəaliiyyətlər arzulayıram.

AYB- nin üzvü, şair, dramaturq,
Respublika "Xarı Bülbül" müsabiqəsinin qalibi
XANLAR HƏMİD

-Şahid Astaralını son illərdən tanıyıram. Rəhbərlik etdiyim Bölmənin ədəbi məclislərində arabir iştirak edir və hər dəfə də maraqlı çıxışı ilə yadda qalır.

Deyirlər ki, sadəlik həm də nəcabət əlamətidir. Şahidi ilk gündən sadə, mehriban, səmimi bir insan kimi tanıdım. Kənd mühitində yaşasa da onda bir kübarlıq, ədəb-ərkan, mədəniyyət gördüm. Şairliyi isə bir başqa aləmdir. Şahid ruhən azad insandır. Bu səbəbdəndir ki, şair kimi müraciət etdiyi hər mövzuya özünəməxsus münasibət bildirməyi bacarır və deyim ki,uğurlu da alınır.

Son görüşümüzdə Şahid ilk kitabının yaxın günlərdə nəşr olunacağını söylədi. Nə qədər sevindiyini görmək lazım idi. Bilirsiniz, Şahidin bu sevincini nəyə oxşatdım: ilk uşağının dünyaya gəlişini gözləyən valideynin sevincinə.

Bu sevincin xeyirli uğurlu, ayağı sayalı, ruzi bərəkətli və davamlı olması diləyi ilə dostum, gözəl şair Şahid Astaralıya şəxsi həyatında və yaradıcılığında uğurlar diləyirəm.

QAFAR CƏFƏRLİ

AYB Lənkəran Bölməsinin sədri,yazıçı- publisist.

Azərbaycan poeziyası! - Bu poeziya çağlar bulaqların zümzüməsindən, sal qayaların harayından, yaşıl otların həzin küləklərə nazından, qara torpağın mirvari damcılara sevdasından,kainatın yaşıl rəngə tamaşasından yaranıb. Bu poeziya gözəlliyə qibtə edən baxışların sonsuz göylərə təşəkkürünü cilalanıb. Bu poeziya ilin dörd fəslində təbiətin seyrinə hazır olan insan ruhunun pəevazından qüdrətlənib və bir ümmana çevrilib. Bəli, hər şair, hər yazar bu ümmanda bir damladır.

Kəlmələriylə ilmə-ilmə ruhun naxışına çevrilən poeziyamızda öz sözünü deyə bilən yazarlarımızdan biri də Şahid Astaralıdır.

Sevirəm düzlüyü, haqq-ədaləti,
Hər zaman fikrimdə olmuşam qəti.
Şahidin ilk eşqi, ilk məhəbbəti,
Deyin gözləməsin yara, VƏTƏNDİR!!!

Vətən sevdalı şair, bəşəri hisslər aşiqi, mənən gözəl insan Şahid Astaralıya yeni yeni yaradıcılıq uğurları arzu edirəm.

Əziz oxucu, əgər sən də sevgi adlı bir ümmanın zərrəsinə çevrilmək istəyirsənsə, buyur bu sonsuz sevgiylə sənə sarılan şeiriyyatı dadmağa çalış. Sevgi gəmisinin yelkəni sən ol...

Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,
SAKİT İLKİN

ŞAHİD ASTARALININ VƏTƏN ÜNVANLI ŞEİRLƏRİ



Şahid Astaralının ədəb-ərkanı şairliyini tamamlayır desəm, yəqin ki, səhvə yol vermiş olmaram. Bu, həqiqətən belədir və elə onunla ilk tanışlığımda bunun şahidi oldum.

Şahid Astaralı vətənpərvər şairdir. Şeirlərinin hər misrasından Vətən boylanır bu şairin.

,,Vətən həsrəti" şairin ilk kitabıdır. Kitabda yer almış şeirlərin əksəriyyəti Vətənə həsr edilmişdir.

Şahidin Vətən mövzusu diapazonu da öz növbəsində genişlənib şaxələnir. Şairin Vətən "menyu"sunda doğma şəhəri Astaraya, Vətəni yaşadan və vətənləşən şəhidlərə, yurdumuzun təbiət gözəlliklərinə xeyli sayda şeirlər həsr edilmişdir.

Şairin "Vətəndir" adlı şeirinin elə ilk bəndi oxucunu düşünməyə məcbur edir:

Heç nə asanlıqla olmur, eloğlu,
Gül də naz görməsə bir gün itəndir.
Axtarma dünyanı sən qarış-qarış,
Harda şəhid varsa, ora Vətəndir.

Bu şeirində Şahid Astaralı vəhdətdə şəhid-Vətən obrazını yarada bilmişdir.

Onun Azərbaycanımızın Dövlət Bayrağına həsr edilmiş bir şeirində iki misra nəzərimi xüsusi olaraq cəlb etdi:

Kim deyir ki, beş arşınlıq parçasan?-
Əlli milyon ürəklərdən parçasan!

Xalqın, millətin bayrağa sevgisini bundan da gözəl ifadə etmək olarmı?

Bununla belə Şahid Astaralının həyatın müxtəlif sahələrinə həsr edilmiş bir-birindən gözəl şeirləri də oxucu zövqünü oxşamağa qadirdir.

Şairin "Ciblərimdən varaq çıxır" adlı maraqlı bir şeiri də var. Şeirin ilk bəndinə nəzər salaq:

Şeir yazan barmağımla,
Nə əkirəm quraq çıxır.
Əl gicişir pul gəzirəm,
Ciblərimdən varaq çıxır.

Səkkiz bəndlik bu şeirində Şahid Astaralı şairliyin çətinliklərindən ürək ağrısı ilə söhbət açır və sanki oxucunu məyus etməmək üçün şeirinə məzə qatır.

Şairin bu kitabda toplanan sevgi şeirləri də rəngarəngliyi ilə seçilir. Pak sevgi duyğuları, etibar, qarşılıqlı hörmət bu şeirlərin əsas leytmotivini təşkil edir.

Şahidin "Vətən həsrəti" kitabının oxucuların stolüstü kitabı olacağına inanır və ona uğurlar arzulayıram.

AYB-nın üzvü, Əhməd Haqsevər

Şahid Astaralı dövrün nəbzini tutan şairlərimizdəndir. Şeirlərin əsas süjet xətti vətənpərvərlik ruhundadır və hər bir oxucuya vətənə məhəbbət, qəhrəmanlıq hissini aşılıyır. Şeirləri axıcıdır, ürəyə yatandır.

Torpağa, vətənə bağlılıq hissi şeirlərində hər bir misranın obyektiv məzmunundan, mahiyyətindən doğur, üzə çıxır. Bu hiss güclü emosional təsirə malikdir. Onun şəxsi subyektiv düşüncələri, duyğuları çərçivəsindən çıxaraq qəlblərə yol tapır. Şairlə oxucu arasında mənəvi birlik, vəhdət yaranır. Öz adımdan təbrik edir və uğurlar arzulayıram.

Nəriman AZƏRİ, şair

Şahid Astaralı, - bu ad şeirsevərlərə sosial şəbəkələrdən tanışdır. Şairlə münasibətim qohumluq körpüsündən keçir. Onunla səmərəli görüşümüz Zəfərimizin bir illiyinə Astaranın park-bulvarında keçirilmiş bayram konsertinə təsadüf edir. Şeirlərini səsləndirmək istəmişdi. Ancaq xahişi qəbul olunmamışdı. Çox məyusluğunu görüb könlünü almaq üçün dedim: "Narahat olma, televiziyda "Astara şairləri" layihəsini ərsəyə gətirmək istəyirəm. İlk qonağım siz olacaqsınız. Onda bütün Azərbaycan sizi tanıyacaq". Bu sözlərimdən sonra həmin tədbirdə sona qədər iştirak etdi.

Az keçmədi şairlə görüşüb ondan müsahibə götürdüm və sosial şəbəkədə

öz səhifəmdə bir neçə şeirlərini paylaş etdim. Şeirləri böyük səbəbə maraq olmaqla vətənpərvər şair kimi tanınmağa başladı. Əməyinə ilk qiymət Rusiya Federasiyası Boryatiya Muxtar Respublikasının Selinqa şəhərində Azərbaycan Diasporasının sədri Cəmil Hüseynovdan gəldi. Şeirlərində vətənpərvərlik motivləri, vətənə, elinə, torpaqlarımızın azadlığı yolunda öz canını fəda edən qəhrəmanlara sonsuz məhəbbəti və şeirlərində tərənnüm etməsi Cəmil müəllimin təsis etdirdiyi, bölgədə diaspora nümayəndəsi kimi Mədəniyyət Mərkəzində çoxsaylı mədəniyyət işçilərinin iştirakı, Lənkəran Regional İdarəsinin

nümayəndəsi Saoğlan Bayramovun təşkilatçılığı ilə "Qızıl Qələm" mükafatını şairə təqdim etdim. Bu mükafat ona böyük tədbirlərdə iştirak etməyə yol açdı.

İkinci sevinci onun kitabının çap etməsi fikrimiz oldu. Bu, şair üçün gözlənilməz olsa da, reallığa çevrildi. Var olsun ədəbiyyata, şeiriyyətə, dəyər verən xeyriyyəçi işlərlə sevərək rəvac verən Cəmil müəllim, Salman və Asif soydaşlarımız. Təklifimizi qəbul edib şairə və bu sevinci yaşadanlara təşəkkürümüzü bildiririk.

Şahid qardaş, sizi ürəkdən təbrik edirəm. Sən təmiz ürəkli insan, mehriban dost, fədakar şairsən. İnanıram ki, sənin bu kitabın əllərdə gəzərək çoxsaylı oxucuların qəlbində sənə qarşı sonsuz məhəbbətə çevriləcək.

Sizə yaradıcılıqda yeni-yeni uğurlar arzu etməklə, birinci addımını "Astara şairləri" layimdən başlayıb uğurlu nəticə qazandığına görə çox qürurluyam.

Hörmətlə,
Astara Mədəniyyət Mərkəzinin
Toradi kənd Diyarşünaslıq klubunun müdiri,
Sürəddin ƏLİYEV

Mündəricat

MÜƏLLİFDƏN 5
ÖN SÖZ 7

ŞEİRLƏR
VƏTƏN HƏSRƏTLİ ŞEİRLƏR

VƏTƏN HƏSRƏTİ 10
ZİRVƏLƏRDƏ DALĞALANAN BAYRAĞIM 11
VƏTƏNDİR 13
CƏNNƏT ZİRVƏSİYLƏ QOŞA ŞƏHİDLƏR 14
BİZ SİZƏ BORCLUYUQ, QALİB ƏSGƏRİM 16
VƏTƏNİMDİR, VƏTƏNİMDİR, VƏTƏNİM 18
QƏLƏBƏN MÜBARƏK, AZƏRBAYCANIM 20
DÜŞMƏNİN BAĞRINI YARAN OĞULLAR 22
ŞƏHİDLƏR 24
ÜRƏKLƏRDƏ ŞƏHİDLƏR 26
GƏL DÖNDƏR MƏNİ DƏ DAŞINA, VƏTƏN 27
İLAHİ EŞQ İLƏ VİRĞUNAM SƏNƏ 29
MƏN QALİB ÖLKƏNİN VƏTƏNDAŞIYAM 31
ŞƏHİDİMƏ HÖNKÜR-HÖNKÜR AĞLAYIN 33
İKİ OĞLU ŞƏHİD ANA 35
ELİMİN QƏHRƏMAN OĞLU PƏNCƏLİ 37
ANALARIN GÖZ YAŞLARI QURUMUR 39
VƏTƏNSİZ ÖLÜMDƏN QORUYUN MƏNİ 41
ALLAH SƏNİ QORUSUN, ... 42
GET, ALLAHA ƏMANƏT 42
YALVARIRAM, BU DÜNYAYA BİR DƏ GƏL 44

QAYIDIN VƏTƏNƏ, QAYIDIN BARI 46
EY ANA VƏTƏNİM, DOĞMA ASTARAM 48
ELƏ VÜQARLISAN, EY Bİ YAYLAĞIM 50
DÜNYAYA GÖZ AÇAN OCAĞIM MƏNİM 52
ANA VƏTƏNİMDİR DOĞMA HAMUŞAM 54
HƏSRƏTİNDƏYƏM 55
DÜŞÜR YADIMA 56
MƏNİM DOĞMA MƏMLƏKƏTİM 57

MƏHƏBBƏT ŞEİRLƏRİ

MƏN SƏNİ SEVİRDİM, SEVMİRƏM DAHA 60
DOĞUM GÜNÜN MÜBARƏK 62
SƏNƏ VURULMUŞAM SƏNDƏN XƏBƏRSİZ 63
SƏNSİZ NEYNƏYİRƏM BU XOŞBƏXTLİYİ 65
QOCALAQ GEDƏK 67
ŞAİRİN NAZIYLA OYNAMAQ ÇƏTİN 68
MƏHƏBBƏT MÜLKÜNÜN QALASIYAM MƏN 70
TUT ƏLİMDƏN QOŞA GEDƏK BU ÖMRÜ 71
GƏL, BİR AZ BAŞINA DUZ DOLANDIRAQ 73
YARAŞIR 75
GƏRƏK 76
SƏN MƏNİM ÖMRÜMƏ XOŞ GƏLDİN, GÜLÜM!!! 77
DAHA YAR BAŞINA HEÇ KƏS DOLANMIR 79
DARIXDIM 81

DÜNYAYA AİD ŞEİRLƏR

VALLAHİ, BU DÜNYA DÜZƏLƏN DEYİL 84
BƏS NİYƏ ARXAMCA AĞLADIN, DÜNYA 85
A DÜNYA 86
NƏYİNİ SEVƏK Kİ BELƏ DÜNYANIN 87
BU DÜNYANIN SONU ÇATIB DEYƏSƏN 89
BU DÜNYA VƏFALI YAR OLAN DEYİL 91
ONDA GÖRDÜM VƏFASINI DÜNYANIN 93
MƏN BELƏ DÜNYADA YAŞAYAMMARAM 95
DÜNYA RƏSSAMDIR 96
OZAN BABA, GƏL LAYLAMI ÇAL İNDİ 97

QARIŞIQ ŞEİRLƏR

ƏLVİDA 100
NEYNƏYİM 101
HƏLƏ BİZ 102
ÖMÜR QOCALIĞA APARIR BİZİ 104
ÖMRÜMÜ 106
BACIM, SİZİ ZİYARƏTƏ GƏLMİŞİK 107
QALANDA GÖRDÜM 108
ƏLLƏRİ QIZIL BACIM 109
HÜNƏRİN VAR İNDİ YAŞA 110
İNANMA 113
HƏR KƏS KİŞİ KİMİ YAŞIYA BİLMİR 115
BİR TƏBƏSSÜM İLİ OLSUN 117
HƏYATDI DA, YAŞAYIRIQ 119
QOCALIRIQ 121

CİBLƏRİMDƏN VARAQ ÇIXIR 123
TƏKİ CANIM SAĞLAM OLA 125
KASIBLIQ QOCALTDI BİZLƏRİ, QARDAŞ 127
BİR SÜDƏMƏR KÖRPƏ MƏNİ DƏYİŞDİ 129
NƏ TEZ AĞARTDIQ BU SİYAH TELLƏRİ 131
QALDIM 132
GEDİRİK AH ÇƏKƏ-ÇƏKƏ 133
İXTİYARSIZ GÖZLƏRİMDƏN YAŞ GƏLİR 135
SATANLAR ÇOX, ALAN YOXDU BU DİYARDA 137
XƏLƏT ÖLDÜRDÜ MƏNİ 139
BİR DƏYƏRSİZ ÖLÜM MƏNİ QORXUDUR 141
İNDİ OLDUM DAHA "ƏMƏKDAR BABA" 143
ATIRIQ GÜLLƏNİ QƏPİYƏ İNDİ 144
ÇƏK BAŞINA YORĞANINI, YATGİNƏN 146
ATALI İLLƏRƏ APARIN MƏNİ 148
A T A 149
TƏLƏSMƏ, AY ÖMRÜM, YAŞA TƏLƏSMƏ 151
AY ÖMRÜM 153
GÖRDÜM 154
ANA 155
NEYNƏSİN 157
NƏ SƏN GÜNAHKARSAN, NƏ MƏN GÜNAHKAR 158
DOĞMASI DA GETDİ, YADI DA GETDİ 160
ÖZÜM ÜÇÜN YAŞAMADIM BU HƏYATI 161
MƏN QUŞ OLMAQ İSTƏYİRƏM 163
DAŞ ÜSTÜNDƏ İKİ KƏLMƏ YAZIYIQ 166
MƏNƏ DƏNİZ VERİN 168

DEYİMMİ XOŞ GƏLDİN, GÖZƏL NOVRUZUM 170
A DAĞLAR 172
ƏYİLDİ QAMƏTİM, BÜKÜLDÜ GETDİ 173
ƏLLİ YAŞ NƏDİR Kİ, DEYƏN DOSTLARIMA 174
VƏZİFƏ 175
QADAN ALIM 176
O DA MAYOR, BU DA MAYOR 177
İNDİ VİRUS GƏLİR BAZAR GÜNLƏRİ 179

KİTABA YAZILAN RƏYLƏR 181

Şahid ASTARALI

Vətən həsrəti

Naşir: Ceyhun Əliyev
Dizayner: Məlahət Əliyeva
Operatorlar: Ülvi Arif, Asim Səfərov

Yığılmağa verilmişdir: 15.11.2022
Çapa imzalanmışdır: 04.12.2022
Tiraj 200, şərti çap vərəqi7
“Ecoprint” nəşriyyatının mətbəəsində
çap olunmuşdur
Bakı, Mətbuatpr., 529
Tel.: (99455) 216-09-91